Aprelin 11-də keçirilən prezident seçkilərində xalq 86,03 faiz səslə İlham ƏLİYEVƏ növbəti dəfə "HƏ" dedi. Bu, möhtəşəm qələbədir

GÜNDOĞAR

14 aprel 2018-ci il № 9-10-11-12 (6673) İCTİMAİ-SİYASİ QƏZET Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

PREZİDENT İLHAM ƏLİYEV SƏS VERDİ

Aprelin 11-i müasir müstəqil Azərbaycanın tarixində növbəti prezident seçkiləri günüdür.

AZƏRTAC xəbər verir ki, səsvermə prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəldi.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədilər.

Sonra birinci xanım Mehriban Əliyeva və ailə üzvləri səs verdilər.

ƏMİNƏM Kİ, BİZ HƏMİŞƏ QƏLƏBƏLƏR YOLU İLƏ GEDƏCƏYİK

Aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə Prezident İlham Əliyev xalqımıza müraciət edərək minnətdarlığını bildirib:

-Əziz həmvətənlər.

Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm.

Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq.

Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimizdən bir addım da geriyə atmamışıq. Bizim prinsipial mövqeyimiz daha da güclənir. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, bunun başqa yolu yoxdur. Son illər ərzində bir çox mötəbər

beynəlxalq təşkilatlar bizim mövqeyimizi, ədaləti dəstəkləyən bir sıra qərar və qətnamələr qəbul etmişlər. Biz böyük diplomatik qələbələrə nail olmuşuq. Eyni zamanda, döyüş meydanında biz böyük qələbəyə nail olmuşuq. Azərbaycan əsgəri, Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal altında olan torpaqlarımızın bir hissəsini işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan təmizləndi və o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlara həyat qayıdır, insanlar qayıdır. O torpaqlarda prezident seçkiləri keçirilir. Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq, bu torpaqlarda prezident seçkiləri keçiriləcək, Azərbaycan Prezidenti seçiləcəkdir.

Biz daha güclü olmalıyıq. Güclü olmaq üçün daha güclü iqtisadiyyat qurmalıyıq. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır və bu gün Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasındadır. Rəqabət qabiliyyətliliyinə görə biz 35-ci yerdəyik.

Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Son 15 il ərzində maaşlar və pensiyalar 8 dəfə artmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilibdir. Biz ən qabaqcıl texnologiyaları ölkəmizə gətiririk, tətbiq edirik və texnoloji, elmi inkişaf gələcək fəaliyyətimiz üçün də əsas prioritetlərdən biri olacaqdır.

Bir sözlə, bütün istiqamətlər üzrə nəticələr göz qabağındadır. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir. Bizim təşəbbüsümüz və fəal iştirakımızla o layihələr əsasında Avrasiyanın enerji və nəqliyyat xəritələri yenidən tərtib olunur. Azərbaycan dövləti heç vaxt bugünkü qədər güclü olmamışdır. Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq.

Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!

MSK-nın prezident seçkiləri ilə bağlı ilkin məlumatı:

İlham Əliyev - 3 milyon 397 min 664 səs (86,03 faiz)

Zahid Oruc - 123 min 6 səs (3,11 faiz)

Sərdar Məmmədov - 119 min 674 səs (3,03 faiz)

Qüdrət Həsənquliyev - 119 min 390 səs (3,02 faiz)

Hafiz Hacıyev - 59 min 977 səs (1,52 faiz)

Araz Əlizadə - 54 min 603 səs (1,38 faiz)

Fərəc Quliyev - 46 min 10 səs (1,17 faiz)

Razi Nurullayev - 29 min 282 səs (0,74 faiz)

Aprel döyüşlərindən 2 il ötdü

AŞAĞI QARAMANLI KƏNDİNDƏ

Aprel döyüşlərinin ikinci ildönümünün qeyd olunduğu günlərdə Neftçala, neftçalalılar da bu döyüşlərdə onlara baş ucalığı gətirmiş igidlərini unuda bilməzdi. Aprelin 4-də Aşağı Qaramanlı kəndində, Neftçala-Salyan yolunun kənarında Elimdar Səfərovun büstünün

qoyulduğu abidənin önündə keçirilən tədbir izdihamlı oldu. Əslində bura bütün aprel şəhidlərinin şərəfinə ucaldılmış abidə kompleksidir. Kompleksin üzərindəki mərmər lövhələrdə bütün aprel şəhidlərinin şəkilləri

əks olunmuşdur. Səliqəli parkda gül-çiçəklə əhatə olunmuş abidə kompleksinin önündə isə gizir Elimdar Səfərovun büstü ucalır.

20 Yanvar İctimai Birliyi və şəhid Elimdar Səfərovun ailəsi tərəfindən aprel döyüşlərində həlak olan şəhidlərin şərəfinə həsr olunmuş "Qəhrəmanlıq salnaməsi" adlı bu möhtəşəm tədbir əzəmətli dövlət himninin səslənməsi ilə başlandı.

Sonra tədbirin aparıcısı — Dünya Jurnalistləri Xəbərlər Saytının rəhbəri Almaz Əhmədova ilk sözü rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevə verdi. Rayon rəhbəri aprel döyüşlərində qəhrəmancasına həlak olan bütün şəhidlərin neftçalalılar üçün qürur mənbəyi olduğunu dilə gətirdi. Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş mayor Samid İmanovla, "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif olunmuş Elimdar Səfərovla fəxr etdiklərini bildirdi.

Şəhid Elimdar Səfərovun təhsil aldığı Qədimkənd kənd tam orta məktəbinin şagirdlərinin hazırladıqları ədəbi-bədii kompozisiyada Aprel döyüşləri, bu döyüşlərdə qəhrəmancasına həlak olan şəhidlər qürurla vəsf olundular.

Söz ecazkar səsi ilə ürəkləri titrədən mayor Şəmistan Əlizamanlıya veriləndə səslənən alqışlar heç də təsadüfi deyildi. Bu o Şəmistan Əlizamanlıdır ki, yazdığı hərbi marşları ilə uzun illər əsgərlərimizə ruh vermişdi, onları döyüşə, qələbəyə səsləmişdi. Abidə önünə toplaşanlar onun bu dəfəki marşlarını, əsgər mahnılarını da həyəcanla dinlədilər. Birgül Ağdamlının bu qəbildən olan mahnıları da qəhrəmanlığın vəsfi, tərənnümü idi.

Aşağı Qaramanlı kənd tam orta məktəbinin şagirdlərinin ifasında səslənən ədəbi-bədii kompozisiya maraqla qarşılandı. Daxilən alışıb yanan bu uşaqlara baxanda hiss edirsən ki, onlardakı sonsuz nifrət nə vaxtsa süngüyə çevrilərək düşmənin bağrını deləcək.

Tanınmış iş adamı, respublika Ağsaqqallar Şurasının üzvü həmyerlimiz Akif Kərimov da həmkəndlisinin — Elimdar Səfərovun qəhrəmanlığından qürur duymaya bilməzdi. O da ürək sözlərini bildirdi, Aprel döyüşləri ilə bağlı görəcəkləri işlərdən danışdı.

Respublikamızın paytaxtından, ayrı-ayrı regionlardan çoxlu insanlar bu möhtəşəm tədbirdə iştirak etməyi, ümumi kədərə şərik olmağı özlərinə borc bilmişdilər. Sinələrinə oğul dağı çəkilmiş şəhid anaları dərdlərinin ağır olmasına baxmayaraq qürurlu idilər. Bu qürur çıxışlarında da açıq-aydın görünürdü. Elimdarın döyüş yoldaşları onun haqqında yana-yana danışdılar, bu qisasın yerdə qalmayacağını bildirdilər.

Rayon səfərbərlik və hərbi xidmətə çağırış şöbəsinin rəisi Turan Əliyevin inamlı çıxışından sonra bir daha əmin olduq ki, rayonumuzda hünər estafeti bundan sonra da davam edəcək.

HƏSƏNABAD QƏSƏBƏSİNDƏ

Aprelin 9-da eyni izdiham Həsənabad qəsəbəsində yaşandı. Bu dəfə el-oba həmin döyüşlərdə böyük şücaət göstərərək Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən Samid Gülağa oğlu İmanovun doğulub boya

başa çatdığı evin həyətinə toplaşmışdı. Minlərlə insanı bu ünvana çəkib gətirən elin qəhrəman övladına böyük sevgisi, məhəbbəti idi. Rayon icra hakimiyyətinin başçısı hörmətli

İsmayıl Vəliyev, rayonun rəhbər işçiləri və digər şəxslər də anım mərasimində iştirak edirdilər. Üçrəngli bayrağımız izdihamın başı üzərində vüqarla dalğalanırdı.

Rayon sakinlərinin gözəl ziyalı, yaxşı aparıcı kimi tanıdığı Ruhəngiz Nəcəfovanı dinləmək bu dəfə də xoş idi. Qəhrəmanlığı, qəhrəmanımızı vəsf edən Ruhəngiz xanım ilk sözü rayon səfərbərlik və hərbi xidmətə çağırış şöbəsinin rəisi Turan Əliyevə verdi. Turan Əliyev belə igid döyüşçülərin, qəhrəmanların gənclərin vətənpərvərlik tərbiyəsində əsl nümunə olduğunu bildirdi.

Elin igidlərinin, qəhrəmanlarının anıldığı belə mərasimlərdə həmişə yaxından iştirak edən, hərarətli çıxışları ilə insanların sevgisini qazanan millət vəkili Qənirə Paşayevanın bu dəfəki çıxışını da həyəcansız dinləmək olmurdu. Samid İmanovun şərəfli ömür yolundan, döyüş şücaətlərindən ürəkdolusu, sevgi ilə söhbət açan Qənirə xanım Vətən üçün belə ləyaqətli oğul böyüdən valideynlərinin qarşısında baş əydi.

Gənc Vətənpərvərlər Birliyinin sədr müavini, Samid İmanovun döyüş yoldaşı İslam Əzimovun, Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Aidə Eyvazlının içdən gələn səmimi çıxışları da eyni hərarətlə alqışlandı. Onlar da Vətənin belə igid oğulları ilə şöhrətləndiyini dilə gətirdilər, bu qəhrəmanlıqdan qürur duyduqlarını bildirdilər.

Mərasimə gələnlərin, söz demək istəyənlərin sayı hesabı yox idi. Rayon mətbuatının nümayəndəsi olaraq Milli Qəhrəman Murad Mirzəyevin atasını, şəhid analarını, ayrı-ayrı qurumların nümayəndələrini də dinlədik. Söz demək onlar üçün nə qədər çətin olsa da, hamısı nikbin idi, təki Vətən sağ olsun, xalqımız, millətimiz yaşasın dedilər. Öyrəndik ki, həmyerlimiz Gülqədəm Mirzəzadə Milli Qəhrəman Samid İmanova həsr etdiyi kitabının üzərində də eyni həvəslə, nikbinliklə çalışır.

Məktəblilərdəki, kiçik yaşlı uşaqlardakı Vətən sevgisi, torpağa məhəbbət bizi xüsusilə sevindirdi, qürurlandırdı. Şəhər 1 saylı, Xolqaraqaşlı kənd tam orta məktəblərinin əsgər geyimli şagirdləri sabahın igid döyüşçülərini xatırladırdılar. Onların Vətənimizi, qəhrəmanları tərənnüm edən şeirlərində də bir döyüş ruhu vardı. Həsənabad qəsəbə tam orta məktəbi şagirdlərinin başları üzərində dalğalandırdıqları üçrəngli bayraqlarımız da sabahkı qələbədən, zəfərdən xəbər verirdi.

Sonda qəhrəmanın ailəsinin yaxını İlqar Sadıqov çıxış edərək şəhidlərə göstərdikləri diqqət və qayğıya görə rayon rəhbərliyinə, mərasim iştirakçılarına səmimi minnətdarlığını bildirdi.

Mərasim başa çatdıqdan sonra çoxlu sayda insanlar Samid İmanovun uyuduğu məzarlığa gələrək qəhrəmanın abidəsi önünə tər çiçəklər düzdülər, ona qadir Allahdan qəniqəni rəhmət dilədilər.

DÖYÜŞ MÜKAFATI TƏQDİM OLUNDU

Vətən uğrunda fədakarlıq göstərmisənsə, bu heç vaxt unudula bilməz. Göstərilən fədakarlıq öz layiqli qiymətini almalıdır. Necə ki, aldı. Ölümündən sonra İbrahim Mövsüm oğlu Mənəfovun "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunması bunu bir daha əyani şəkildə göstərdi. Aprelin 3-də rayon icra hakimiyyətinin akt salonunda yüksək mükafatın təntənəli təqdimat mərasimi keçirildi.

Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev mərasimi açaraq neftçalalı gənclərin Vətən sevgisindən danışdı. Bildirdi ki, İbrahim Mənəfovu şəhidlik zirvəsinə ucaldan da yurduna, torpağına olan sonsuz məhəbbəti idi.

Şəhidin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra söz polkovnik Abdulla Qurbaniyə verildi. Abdulla Qurbani bundan əvvəl də rayonumuzda olmuşdu, şəhidlərin dəfn mərasimlərində iştirak etmişdi, gözəl, rəvan nitqi ilə minlərlə insanın diqqətini özünə çəkmişdi. Aprel döyüşlərindən, İbrahim Mənəfovun döyüş yolundan danışan Abdulla Qurbani söylədiyi canlı epizodlarla bu dəfə də salondakıları kövrəltdi. Çıxışının sonunda belə vətənpərvər övlad böyüdüb tərbiyə etdiklərinə görə şəhidin valideynlərinə Müdafiə Naziri Zakir Həsənovun adından səmimi minnətdarlığını və təşəkkürünü bildirdi.

Vaxtı ilə İbrahim Mənəfova dərs demiş şəhər 3 saylı tam orta məktəbinin müəllimi Lətafət Rəhimovanın çıxışı da maraqla dinlənildi.

Şəhidin valideynləri — atası Mövsüm kişi, anası Yasəmən xanım, qardaşı Nicat üçün danışmaq çətin olsa da, qürurlu idilər, İbrahimlə fəxr etdiklərini bildirdilər, Vətən sağ olsun dedilər. Rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev və palkovnik Abdulla Qurbani dövlət mükafatını — "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalını şəhidin anası Yasəmən Mənəfovaya təqdim etdilər.

Sonda əsgər yoldaşları, valideynləri və doğmaları, rayon səfərbərlik və hərbi xidmətə çağırış şöbəsinin rəhbərliyi və əməkdaşları Bankə qəbristanlığına gedərək şəhidin məzarı önünə gül dəstələri qoydular.

PREZİDENT SEÇKİLƏRİ BAŞA ÇATDI, İLKİN NƏTİCƏLƏR AYDINDIR

Biz bu nəticələri yerlərdə keçirilən səmimi görüşlər, mitinqlər zamanı əyani şəkildə görmüşdük

İnsanlarla canlı ünsiyyət Yenikənd kənd inzibati ərazi dairəsinə daxil olan Şirvanlı kəndindən başlandı. Biz əvvəllər də bu yaşayış məntəqəsində olmuşduq. Özü də dəfələrlə. Hər dəfə

də burada dövlətə, dövlətçiliyə sədaqətin, hörmətin əsl nümunəsini görmüşdük. Bu dəfəki görüşə də çoxlu sayda insan toplaşmışdı. Hamının da çöhrəsində xoş təbəssüm vardı. Onlar bu dəfə də sakinlərin görüşünə gələn qonaqları böyük hörmətlə, ehtiramla qarşıladılar. Görüşü Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Anar Cəfərov açaraq seçki qərargahının üzvlərini — YAP rayon təşkilatı idarə heyətinin üzvü Əjdər Kərimovu, "Gündoğar" rayon qəzetinin baş redaktoru, respublikanın Əməkdar jurnalisti Habil Əsədovu salona toplaşanlara təqdim etdi, görüşlərin hansı zərurətdən yarandığını, belə səmimi görüşlərin tərtib olunmuş qrafikə uyğun olaraq rayonumuzun hər yerində keçiriləcəyini diqqətə çatdırdı. Kənd sakinləri Anar Cəfərovun, Əjdər Kərimovun və digərlərinin prezidentliyə namizəd İlham Heydər oğlu Əliyevin fəaliyyətinin ən mühüm məqamlarını, dövrlərini, xüsusiyyətlərini özündə əks etdirən çıxışlarını böyük maraqla dinlədilər. Zəngin faktlara, arqumentlərə əsaslanan bu çıxışlar salondakıların məlumatlarını daha da genişləndirdi, onlarda xoş duyğular oyatdı.

Rayonun ən böyük yaşayış məntəqələrindən olan Həsənabad qəsəbəsində də əsl səmimiyyətin, canlı ünsiyyətin şahidi olduq. Havanın küləkli, soyuq olmasına baxmayaraq ətraf yaşayış məntəqələrinin sakinləri də buraya gəlməyi özlərinə borc bilmişdilər. Burada da seçicilərlə keçirilən görüşü Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Anar Cəfərov açaraq partiyanın namizədinin İlham Heydər oğlu Əliyev olduğunu diqqətə çatdırdı, bu böyük insanın xalqımız və Vətənimiz qarşısındakı misilsiz xidmətlərindən danışdı, konkret faktları, rəqəmləri görüş iştirakçılarının nəzərində canlandırmaqla onları ölkəmizdə başlanmış genişmiqyaslı işlərin davamına səs verməyə çağırdı. Rayonumuzda təcrübəli təbliğatçılar kimi tanınan YAP rayon təşkilatı idarə heyətinin üzvləri — Telman Zahidovun, Əjdər Kərimovun, qəsəbədə böyük nüfuza malik ağsaqqal ziyalı kimi tanınan, Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri, rayonumuzun deputatı Arif Rəhimzadənin köməkçisi Arif Nağıyevin çıxışları da böyük maraqla dinlənildi. Onlar səmimi söhbətlərində dövlətimizin düşünülmüş daxili və xarici siyasətindəki uğurlara, regional inkişafa və digər məsələlərə geniş aydınlıq gətirdilər.

Sonrakı belə görüşlərdə nisbətən uzaq ünvanların — Sarıqamış, Tatarməhlə və digər kəndlərin, yaşayış məntəqələrinin seçilməsi də təsadüfi deyildi. Rayon mərkəzindən xeyli uzaqda yerləşən bu ərazilərdə təşviqatın düzgün qurulmasının, insanlarla səmimi söhbətlərin aparılmasının əhəmiyyəti xüsusilə böyük idi. Daha sonra belə səmimi görüşlər Neftçala şəhər mədəniyyət evində qadınlarla, Bankə qəsəbəsində sakinlərlə keçirilmişdi. Sonuncu görüşlərdə Yeni Azərbaycan Partiyası Seçki Qərargahının üzvlərinin — Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri, rayonumuzun deputatı hörmətli Arif Rəhimzadənin və "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyevin iştirak etməsi bu görüşləri daha canlı və yaddaqalan etmişdi.

Şəhər stadionundakı izdihamlı təşviqat mitinqində minlərlə neftçalalının "İlhamla irəli!" çağırışına gur alqışları ilə cavab verməsi bunu bir daha təsdiqləmişdi

O gün stadionda doğrudan da böyük izdiham yaşanmışdı. Minlərlə insan 15 il ölkəmizə rəhbərlik edərək onu tanınmaz dərəcədə dəyişdirən, bir-birindən layiqli uğurlara, nailiyyətlərə qovuşduran İlham Heydər oğlu Əliyevin namizədliyinə dəstək vermək üçün gəlmişdilər buraya. Onların çöhrəsindəki xoş təbəssüm, böyük sevinc bunu açıq-aydın göstərirdi.

Bu dəfə də neftçalalıların qonaqları Yeni Azərbaycan Partiyası Seçki Qərargahının üzvləri idilər. Əvvəlki tədbirlərdə olduğu kimi 10 mindən çox neftçalalının toplaşdığı bu izdihamlı mitinqi də YAP rayon təşkilatının sədri Anar Cəfərov açaraq qonaqları stadiona toplaşanlara təqdim etmişdi və ilk sözü rayonumuzun

sakinlərinin böyük hörmət bəslədiyi deputatımıza — Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri Arif Rəhimzadəyə vermişdi. 20 ildən çoxdur ki, neftçalalıların yanında olan, rayonumuzun inkişafı, adamları narahat edən bir sıra problemlərin aradan qaldırılması, çoxsaylı şəxsi müraciətlərin həlli üçün həmişə var qüvvəsini sərf edən Arif Rəhimzadənin çıxışının diqqətlə dinlənilməsi, alqışlanması da məhz bununla bağlı idi. Beynəlxalq aləmdəki, ölkəmizdəki ictimai-siyasi prosesləri hərtərəfli təhlil edən, respublikamızda həyata keçirilən böyük quruculuq işlərinə, son illərin iqtisadi islahatlarına, dövlət proqramlarına, Azərbaycanın və onun bir parçası olan Neftçalanın sabahkı mənzərəsinə geniş aydınlıq gətirən Arif müəllim bütün bunların Heydər Əliyev siyasətindən, bu siyasəti yeni yaradıcılıqla, zamanın tələblərinə uyğun davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin işıqlı ideyalarından qaynaqlandığını diqqətə çatdırdı. Bildirdi ki, nəzərdə tutulan böyük layihələr, dövlət proqramları həyata keçirildikcə ölkəmiz, o cümlədən Neftçala daha da inkişaf edərək çiçəklənəcəkdir. Azərbaycandakı davamlı sabitlik, təhlükəsizlik bundan sonra da etibarlı şəkildə qorunub saxlanılacaqdır.

Təşviqat qrupunun digər iştirakçıları — "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev, millət vəkili Fəzail Ağamalı da tanınmış, nüfuzlu insanlar idilər. Buna görə onların çıxışları da maraqla dinlənildi. Bildirdilər ki, Azərbaycanın iqtisadi potensialı qarşıya qoyulan məqsədlərə çatmağa imkan versə də, son illərin bütün qlobal layihələrinin, ölkənin regionlarının və digər sahələrin inkişafını təmin edən dövlət proqramlarının baş müəllifi dövlət başçısı cənab İlham Əliyevdir. Məhz Prezident İlham Əliyevin ardıcıl səyləri sayəsində Azərbaycanın beynəlxalq aləmdəki rolu və nüfuzu xeyli dərəcədə möhkəmlənmişdir.

Həmin gün təkcə gözəl söz-söhbətlərlə deyil, eyni zamanda şux mahnılarla, musiqi nömrələrilə qaldı yaddaşlarda. Son dərəcə zəngin təəssüratın, böyük sevincin yaşandığı bu meydanda neftçalalıların görüşünə gələn adlı-sanlı incəsənət ustalarının, sənət adamlarının çıxışlarını dinləmək hamı üçün xoş idi. Xalq artistləri Məleykə Əsədova, Səməd Səmədov, tanınmış müğənnilər Şəbnəm Əsədova, Vüsal Hacıyev, Nigar Abdullayeva, Şəbnəm Qəhrəmanova, Vüsal Quliyev, "Şeron" qrupu və başqaları söylədikləri şeirlərlə, oxuduqları mahnılarla, ifa olunan əlvan musiqi nömrələri ilə onsuz da yüksək əhvali-ruhiyyədə olan neftçalalılara sözün əsl mənasında böyük sevinc, xoş ovqat yaşatdılar.

Sonra təşviqat qrupunun üzvləri görüşləri rayonun Aşağı Qaramanlı, Aşağı Surra, Boyat kəndlərində, XIIIı qəsəbəsində və digər ərazilərdə, YAP rayon təşkilatı gənclər birliyinin üzvləri ilə, tibb işçiləri ilə davam etdirmişdilər. Əhali ilə görüşlər konkret olaraq bu kəndlərdə, qəsəbələrdə keçirilsə də, qonşu kəndlərin, yaşayış məntəqələrinin sakinləri də bu görüşlərdə iştirak etmişdilər. Özü də onlar bura kiminsə göstərişi ilə yox, ürəklərindəki sevgi ilə, hazırkı iqtidarın, dövlət başçısının siyasətinə həmrəyliklərini nümayiş etdirmək üçün gəlmişdilər. Bunu onların çıxışlarındakı səmimi minnətdarlıq duyğuları bir daha aydın şəkildə göstərirdi.

Dövlətimizə, dövlətçiliyimizə, Heydər Əliyev siyasətinə, bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin genişmiqyaslı fəaliyyətinə inamın nə qədər yüksək olduğunu rayonun ən böyük yaşayış sahələrindən olan Xol zonasında, Kürün Şirvan tayında da görmüşdük. Bu ərazilərdəki kəndlərin, yaşayış məntəqələrinin sakinləri də təşviqat qrupunun, Seçki Qərargahının üzvlərini mehribanlıqla qarşılamışdılar, çıxışlarına, söhbətlərinə diqqətlə qulaq asmışdılar, bilmədikləri suallara cavab almışdılar. Təşviqat qrupunun, Seçki Qərargahının üzvlərinin çıxışlarından sonra onlar ölkəmizdəki və dünyadakı ictimai-siyasi proseslərlə, Azərbaycanın bu proseslərdəki rolu və yeri ilə, respublikamızın sabahkı inkişafının parametrlərilə daha yaxından tanış olmuşdular. Bütün bunlardan sonra biz bir daha əmin olmuşduq ki, gördüklərimiz, eşitdiklərimiz heç də təsirsiz qalmayacaq. Bütün xalqımız kimi neftçalalılar da aprelin 11-də elliklə seçki məntəqələrinə gələrək Vətənimizin daha da çiçəklənməsini, xalqımızın rifahının yüksəlməsini təmin edə biləcək namizədi dəstəkləyəcəklər.

Nəticə gözlənilən oldu. Neftçalalıların böyük əksəriyyəti boş vədlərə yox, real iş görənə — möhtərəm İlham Heydər oğlu Əliyevə səs verdi

Aprelin 11-də səsvermənin gedişi ilə ilk tanışlığımız rayonumuzdakı seçkilri təşkil edən, tənzimləyən mərkəzdən — 61 saylı Netçala Dairə Seçki Komissiyasından başlandı. Səsvermənin başlanmasına müəyyən vaxt qalsa da, komissiyanın sədri Şaiq Məmmədov, komissiyanın üzvləri yerlərində idilər. Hamının çöhrəsində sevinc vardı. Komissiyanın sədri Şaiq Məmmədov dedi:

— Biz hazırlıq işlərini Mərkəzi Seçki Komissiyasının təsdiqlədiyi Təqvim Planı və Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə həyata keçirmişik. İndi isə söz seçicilərindir. Görək səsvermənin yekunu nə göstərəcək.

Komissiya sədrinin sözlərindən, verdiyi açıqlamadan məlum oldu ki, seçkilərlə bağlı bütün tədbirlər vaxtlı-vaxtında, MSK-nın təsdiqlədiyi Təqvim Planına uyğun və Seçki Məcəlləsinin tələbləri əsasında həyata keçirilib. Bəs seçkinin taleyinin, seçicilərin namizədlərə münasibətinin aydınlaşdığı səsvermə məntəqələrində vəziyyət necədir? Hər bir neftçalalı bu məntəqələrə gələrək öz hüququndan istifadə edə bilirmi? Bu suallara cavab almaq üçün ilk olaraq şəhərin mərkəzindəki mədəniyyət və incəsənət sarayında yerləşən 3 saylı məntəqədə olduq. Səsvermənin yenicə başlamasına baxmayaraq burada əsl canlanma vardı. Ümumi sevinc içində olan insanlar vətəndaşlıq borclarını yerinə yetirmək üçün buraya tələsirdilər. Səsvermənin normal keçirilməsi üçün burada hər cür şərait yaradılmışdı. Müxtəlif qurumları, ictimai təşkilatları təmsil edən müşahidəçilər yerlərində idilər. Komissiya üzvlərinə yaxınlaşan insanlar şəxsiyyət vəsiqələrini təqdim etdikdən və lazımi qaydalar yerinə yetirildikdən sonra onlara bülletenlər təqdim olunurdu.

Məntəqə seçki komissiyasının sədri Cahangir Abdullayevin açıqlamalarından aydın oldu ki, burada səs verəcək seçicilərin sayı 1170 nəfərdən çoxdur. Seçici siyahılarının vaxtında dəqiqləşdirilməsi, Seçki Məcəlləsinin tələblərinə uyğun qaydaların və Təqvim Planında nəzərdə tutulan tədbirlərin ardıcıllıqla yerinə yetirilməsi daim diqqət mərkəzində olub. Məntəqədə vebkameranın quraşdırılması məsuliyyəti daha da artırır, seçkinin daha demokratik və şəffaf keçirilməsinə şərait yaradır. Səsvermə qaydalarını və

seçicinin seçki siyahısındakı nömrəsini özündə əks etdirən bildirişlərin qabaqcadan lazımi ünvanlara çatdırılması təsirsiz qalmamışdı. Məntəqəyə gələn seçicilər yubanmadan istədikləri namizədə səslərini verərək vətəndaşlıq borclarını yerinə yetirirdilər.

Gördüklərimiz, eşitdiklərimiz bizi də ürəkdən sevindirdi. Komissiya üzvlərinə, prosesdə iştirak edənlərə uğur diləyib səsvermələrin keçirildiyi digər ünvanlara üz tutduq. Eyni xoş mənzərə ilə digər məntəqələrdə də rastlaşdıq. Bu məntəqələrdəki fəallıq, mütəşəkkillik, adamların çöhrəsindəki sevinc, onlardakı ümumi fərəh diqqətimizdən yayınmadı. Bu məntəqələrdə də səsvermə Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə tam demokratik və şəffaflıq şəraitində həyata keçirilirdi. Ayrı-ayrı qurumları təmsil edən müşahidəçilər səsvermənin gedişini diqqətlə izləyirdilər. Biz orada olduğumuz müddətə kimi onlar da heç bir qanun pozuntusuna yol verilmədiyini bildirdilər.

Şəhər mədəniyyət və incəsənət sarayında yerləşən 3 saylı, Neftçala Suvarma Sistemləri İdarəsində yerləşən 7 saylı, şəhər 2 saylı tam orta məktəbində yerləşən 8 saylı, Bankə qəsəbə 2 saylı tam orta məktəbində yerləşən 14 saylı, Qədimkənd kənd tam orta məktəbində yerləşən 37 saylı məntəqələr isə vebkameraların quraşdırıldığı yerlərdir. Bu məntəqələrdə keçirilən seçkiləri nəinki rayonumuzda və respublikamızda, dünyanın hər yerində izləmək mümkündür. Ötən seçkilərdə olduğu kimi bu məntəqələrdə bu dəfə də yüksək fəallıq vardı. Xüsusilə Qədimkənd kənd tam orta məktəbində yerləşən 37 saylı məntəqədə. Adamlar dəstə-dəstə gələrək səslərini verir, vətəndaşlıq borclarını yerinə yetirirdilər. Bu məntəqədəki yüksək fəallığın əsas səbəblərindən biri də həmin ərazidə aparılan təşviqatın günün tələbləri səviyyəsində qurulması idi. Həmin gün əməkdaşlarımızla yanaşı fotomüxbirimizin ayrı-ayrı məntəqələrdə səsvermə ilə bağlı çəkdiyi şəkillər prosesin gedişini əyani şəkildə əks etdirirdi.

Səhər saat 8-dən məntəqələrdə başlanan səsvermə axşam saat 7-də başa çatdıqdan sonra proses 61 saylı Dairə Seçki Komissiyasında davam etdirildi. Seçki məntəqələrində səsvermənin nəticələrini əks etdirən protokollar burada qəbul olunaraq Mərkəzi Seçki Komissiyasının Seçki Mərkəzinə ötürülürdü. Komissiya üzvlərinin əksəriyyəti təcrübəli olduğundan üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlirdilər. YAP rayon təşkilatının dairədə müşahidəçisi olduğumdan burada gedən prosesləri əvvəldən axıra kimi mən də diqqətlə izlədim.

Həmin gün burada gecədən xeyli keçənə kimi qızğın iş getdi. Seçki məntəqələrində ayrı-ayrı namizədlərə verilən səslərin ilkin

hesablanmasını əks etdirən protokollardan aydın oldu ki, rayon sakinləri, qədirbilən neftçalalılar ötən prezident seçkilərində olduğu kimi, bu seçkidə də səslərinin böyük əksəriyyətini prezidentliyə namizəd İlham Heydər oğlu Əliyevə vermişdir. Bu ilkin nəticə olsa da, reallıq idi. Təşviqat kampaniyası dövründə yerlərdə keçirilən səmimi görüşlərdə də sakinlər səslərini boş vəd verənlərə yox, real iş görənə, xalqa xidmət edənə verəcəklərini bildirmişdilər. Real nəticə bir daha bunu təsdiqləyirdi.

Milyonlar seçimini etdi
BƏLİ, MƏHZ İLHAM ƏLİYEV

Dünyada hər xalqın, hər millətin, hər ölkənin öz tarixi var. Tarix çoğrafi ərazi ilə ölçülmür, bəzən böyük dövlətlərin kiçik, kiçik dövlətlərin isə böyük tarixi olur. Ana Vətənimiz yer üzündə ən qədim, ən keşməkeşli, ən mürəkkəb tarixə malik ölkələrdən biridir. Xalqımız zaman-zaman ayrı-ayrı imperiyaların tərkibində yaşasa da, öz varlığını, mövcudluğunu həmişə özünə məxsus olan coğrafi ərazidə qoruyub saxlaya bilmişdir.

Məlumdur ki, ilk müstəqil dövlətimiz — Azərbaycan Xalq Cümhuriyyəti cəmi iyirmi üç ay yaşamışdır. Müstəqilliyimizin bərpasından sonra isə Azərbaycan bir dövlət kimi artıq iyirmi yeddi ildir ki, mövcuddur. Etiraf edək ki, SSRİ dağıldıqdan sonra onun bütün maddi və hərbi sərvətləri heç də ədalətli bölünmədi, ağır nüvə başlıqları və digər ən güclü silahlar Rusiya Federasiyasının əlində qaldı. Faktiki olaraq digər müttəfiq respublikalar əslində müdafiəsiz, simvolik dövlət kimi fəaliyyətə başladılar. Azərbaycan dövlətçiliyində özünə inam, öz gücünə arxalanma məhz ümummilli lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəlişindən sonra başlandı. O zaman bu qüdrətli şəxsiyyət bütün dünyaya birmənalı şəkildə bəyan etdi: "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir, sarsılmazdır."

Heydər Əliyev SSRİ-dən miras qalmış sınıq-salxaq, sökülüb-tökülmüş dövlət maşınını yenidən qurdu, möhkəm relslər üzərinə qoyaraq xalqına təqdim etdi və sabaha aparan yolun aydın istiqamətini göstərdi: balanslaşdırılmış siyasət və heç kəsə möhtac olmayan tam suveren, müstəqil, azad inkişaf. Müdrik xalqımız da Heydər Əliyevdən sonra özünə başqa lider axtarmadı, onun layiqli siyasi varisi, müdrik və qətiyyətli dövlət xadimi İlham Əliyevi özünə Prezident seçdi. İllər keçdi, zaman sübut etdi ki, Azərbaycan xalqı öz seçimində yanılmayıb. Ölkəmiz İlham Əliyevin rəhbərliyi altında çoxəsrlik tarixi ərzində özünün ən güclü dövlətçilik dövrünə qədəm qoydu. Azərbaycan dövləti qonşumuz Ermənistan kimi başqalarının qoltuğuna qısılmadı, araba kölgəsində yatmadı, Avropanı, Amerikanı qapı-napı gəzib dilənmədi, gülüş hədəfinə, təhqir ünvanına çevrilmədi. Möhtərəm Prezidentimiz, yeni Azərbaycanın yeni lideri İlham Əliyevin dediyi sözlər bu gün də hər bir azərbaycanlının ürəyini, qəlbini qürur hissilə doldurur və xoşbəxt gələcəyə səfərbər edir: "Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və o ölkədir ki, xalq-iqtidar birliyi onun uğurlu inkişafını müəyyən edir."

İlham Əliyev Azərbaycanın ən yeni tarixində böyük islahatlar lideridir. Son on beş ildə ölkəmizin ictimai, siyasi, maddi, mənəvi həyatında xalqın xeyrinə olan böyük islahatlar rellaşmışdır. Bu islahatlar bər-bəzəkli vədlər, kağız üzərində qərar tutmuş layihələr deyil, yaşadığımız torpaq üstündə, gündəlik yaşamımızda əks olunmuş, həyatımızın, tərcümeyi-halımızın danılmaz faktına çevrilmişdir. Təsadüfi deyil ki, siyasətçilərə etimad göstəricilərinə görə Azərbaycan "Böyük iyirmilik" ölkələrinin, hətta öz dövlətçilik tarixi ilə öyünən oturuşmuş ölkələrin bir çoxunu geridə qoymuşdur.

İlham Əliyevə bir lider, Prezident olaraq ümumxalq məhəbbətinin səbəbi nədədir? Bu gün bu şəxsiyyətin təbliğata, təşviqata ehtiyacı yoxdur. Çünki son on beş ildə nəinki paytaxt Bakının, böyük şəhərlərin, hətta ən ucqar, ən kiçik kəndlərin də problemləri diqqət mərkəzində olmuşdur. Yüksək, sürətli inkişaf nəticəsində gözlərimiz önündə rayonlarımız öz statusunu dəyişmişdir. Onlar artıq geridə qalmış əyalətlərdən inkişaf etmiş regionlara çevrilmişlər. Vaxtilə iş üçün şəhərə üz tutan insanlar artıq öz doğma rayonlarına, qəsəbələrinə, kəndlərinə qayıdır, özlərinin halal həyatını burada yaşayırlar. Əvvəllər əli işdən soyumuş kəndlilər indi böyük həvəslə əkib-biçir, yaradıb qururlar. İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə bütünlükdə aqrar sektorun potensialı hərəkətə gətirilir. Pambıqçılıq, taxılçılıq, üzümçülük, tütünçülük, çaycılıq, heyvandarlıq sahələri birbaşa dövlət qayğısı ilə əhatə olunmuşdur, dövlətin və dövlət başçısının diqqətindədir. Torpağa qayıdışın kökündə real addımlar, görülmüş işlər dayanır. Ən ucqar yaşayış məntəqələrinə abad yollar, qaz xətləri, içməli su xətləri çəkilir, fasiləsiz elektrik enerjisi verilir, bütün sosial problemlər paralel olaraq həll olunur. Daha rahat güzəranı uzaq şəhərlərdə, yad ölkələrdə axtarmağa heç bir ehtiyac və əsas qalmır, heç kəs heç kəsdən asılı, kimsə kimsəyə möhtac deyil, hər kəs öz çörəyini yeyir.

Məlumdur ki, uğurlu daxili siyasətin, iqtisadi inkişafın kökündə və keşiyində uğurlu, müdrik xarici siyasət dayanır. Bu yaxınlarda erməni siyasətçilərindən biri təşviş içində bəyan etdi ki, artıq İlham Əliyev təkcə Qarabağı tələb etmir, bütün Zəngəzur mahalının, keçmiş İrəvan xanlığının adını hallandırır, onları əzəli Azərbaycan torpaqları adlandırır. Belə getsə Əliyev gəlib evimizə girəcək.

Bu təbliğat deyil, tərif deyil, bu düşmənin özünün etirafıdır. Bu, reallığın mənzərəsidir. Belə olan halda hamımız əl-ələ verməliyik, yeni əsrin yeni liderinin — İlham Heydər oğlu Əliyevin ətrafında daha sıx birləşməliyik, bütöv Azərbaycan uğrunda mübarizəni birlikdə aparmalıyıq. Nicatımız, gələcək xoşbəxtliyimiz yalnız bu birlikdədir.

Zabil PƏRVİZ

YEL QAYADAN NƏ APARDI?

Xeyli davam edən hazırlıq tədbirlərindən sonra prezident seçkilərini uğurla başa vurduq. Xalq öz seçimini etdi, ən real, əvəzsiz namizədini — ulu öndər Heydər Əliyevin layiqli siyasi varisini, İlham Heydər oğlu Əliyevi yenidən özünə Prezident seçdi. Çox da doğru, düzgün, uzaqgörən, müdrik bir seçim etdi, özünün işıqlı sabahına, xoşbəxt gələcəyinə səs verdi, gələcək nəslimizin, milli dövlətimizin, dövlətçiliyimizin əbədi varlığına bir daha təminat yaratdı. Çünki danılmaz bir fakt, reallıq artıq gün kimi hamıya məlumdur: Azərbaycan öz dövlətçiliyi tarixində heç bir vaxt belə güclü olmamışdır. Elə düşmənlərimizi də qorxudan budur. Azərbaycan dövləti bu gün bütün parametrləri ilə, bütün sahələrdəki sürətli inkişafı ilə Ermənistanı geridə qoymuş, ciddi xüsusi çəkiyə malik dövlət kimi geosiyasi məkanda güc və söz sahibinə çevrilmişdir.

Atalarımız bir gözəl söz də deyib: "Özgə atına minən tez düşər." Ermənistan da həmişə özgə atına minib, özünün heç bir təminatı olmayıb. Ermənistanın arxalandığı havadarları belə bu ölkəni nələrə bənzətmədilər: dolanmaq naminə özünü satan gəzəyən qadına, isti qucaqlar axtaran pişiyə, qapılara düşmüş dilənçiyə...

Azərbaycan qatarı isə zamanın yollarında şığımaqdadır, uğurlar bir-birini əvəz edir, yalançı miflər, çürümüş stereotiplər dağılır, bütün dünya da bunu görür. Aydın ideoloji istiqamət, müdrik daxili siyasətə söykənən uğurlu xarici siyasət hər gün ölkəmizi məlum hədəflərə doğru aparır. Artıq düşmən də öz aqibətini görür, bəri başdan qapısında necə istehkam yaratmaq haqqında düşünür. Zaman isə amansız hakimdir, onun hökmündən heç bir despot, işğalçı, cani yaxa qurtara bilməyib, bilməyəcək də. Gərək ki, buna aksiom deyirlər.

Bəli, Azərbaycan xalqı bütün sınaqlardan üzüağ çıxmış oğlunu, yeni liderini yenidən özünə Prezident, Ali Baş Komandan seçdi. Onun ünvanına səslənən, yazılan bütün böhtanlar, şərlər, qarayaxmalar öz əhəmiyyətsizliyi ilə iflasa uğradı. Təəssüf ki, bu şərlərin, böhtanların, qarayaxmaların müəllifləri içində öz millətimizdən, sapı özümüzdən olanlar da vardı. Özünü müxalifətçi adlandıran bu nihilistlər boyunlarına yüklənmiş bu böhtan şələsindən yenə xilas ola bilmədilər. Dünyaya "demokratiya" ixrac eləyən eybəcərliklərlə dolu ölkələrə, mərkəzlərə, qurumlara üz tutdular, çörək ağacına çevrilmiş köhnə zurnalarını yenə çalmağa başladılar. Amma hansı "hava"nı çaldılar? Kim pul verirsə, kim nə "sifariş" edirsə, onların "hava"sını. Gördülər ki, bu "hava"ya oynayan yoxdur, elə özləri çalıb özləri də oynamağa başladılar. Niderlandın küçələrinə düşüb dərviş kimi məclislər qurmaq istədilər, alınmadı. Çarvadar, sövdəgər kimi qapı-qapı gəzib ucuz mallarını — qara təbliğatlarını baha satmağa çalışdılar, heç qara qəpiyə də getmədi. Bax, belə yerdə deyiblər ha, var elə zurnaçılar, var belə zurnaçılar, bir də var elə-belə zurnaçılar. Nə qədər boğazlarını yırtsalar da, ovurdlarını şişirtsələr də şabaş verən olmadı ki, olmadı. Belələrinə bir sözümüz var: Dostu, düşməni özünüzə güldürməyin, nə qədər gec deyil, Vətən üçün, xalq üçün xeyirli bir işin qulpundan yapışın, zurnaçı ola bilmədinizsə, heç olmasa halvaçı olun... Siz deyən olmadı, heç olmayacaq da. Yel qayadan nə apardı ki?! Nə apara da bilərdi ki?!

Z.MƏMMƏDOV

Íllərlə, on illərlə qazandığınız böyük el sevgisinin bəhrəsini prezident seçkiləri ərəfəsindəki təşviqat kampaniyasında bir daha gördük, yəqin etdik, hörmətli Arif müəllim

Hörmətli Arif müəllim, yaşlı və orta nəsil Sizin kimliyinizi, dövlətimiz və dövlətçiliyimiz qarşısındakı xidmətlərinizi yaxşı bilir. Elə bilirəm müəyyən vaxt keçəndən sonra bu günkü gənclik də bu qənaətə gələcək. Ötən əsrin 90-cı illərində yenicə qazandığımız müstəqilliyimizin təhlükə ilə üzləşdiyi bir vaxtda qaragüruha qarşı çıxmaq hər kəşin işi deyildi. Amma siz bunu bacardınız. Bilirsiniz niyə? Ona görə ki, Siz çoxları kimi kimməsə xoş gəlmək xatirinə yox, bütün varlığınızla inandığınız bir həqiqətə görə bu riskə gedirdiniz. Tam əmin idiniz ki, xalqı, milləti bu ağır



bəladan yalnız Heydər Əliyev zəkası, Heydər Əliyev qətiyyəti, Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi xilas edə bilər. Doğrudan da belə oldu. Yalnız ulu öndərin hakimiyyətə qayıdışından sonra ölkədə yaranmış xaos və anarxiyaya son qoyuldu, alovlanmaqda olan vətəndaş müharibəsinin qarşısı alındı, böyük qanlar, qurbanlar bahasına qazandığımız müstəqilliyimizi qoruyub saxlaya bildik.

Siz sonrakı illərdə də daim bu dahi insanın yanında oldunuz. Dövlətimizin, dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində atılan bütün tədbirlərdə fəal iştirak etdiniz. Gənc siyasətçi kimi həyatda ilk müstəqil addımlarını atan, möhtərəm Heydər Əliyevin başladığı möhtəşəm işləri daha geniş miqyasda davam etdirmək arzusu ilə yaşayan cənab İlham Əliyevə böyük dəstək verdiniz, zamanın tələb etdiyi yeni qanunların işlənib hazırlanmasında qüvvə və bacarığınızı əsirgəmədiniz.

Biz neftçalalılar da Sizi məhz bu keyfiyyətlərinizə görə sevdik, dəyərləndirdik, dəfələrlə səs verib özümüzə deputat seçdik. Siz də borclu qalmadınız, nəyiniz vardısa rayonumuzdan, rayonumuzun sakinlərindən əsirgəmədiniz. Bir çox çətin, həlli müşkül olan problemlər məhz Sizin köməyiniz, şəxsi hörmətiniz, nüfuzunuz sayəsində həll olundu. Hələ biz çoxlu sayda sadə neftçalalıların şəxsi müraciətlərini demirik. Yaxından köməyinizlə, qayğınızla nicat tapan neçə-neçə ağır xəstələr, maddi imkansızlıq üzündən ali məktəblərdə təhsillərini davam etdirə bilməyən bəzi tələbələr, müəyyən çətinliklərlə, problemlərlə üzləşən bir çox insanlar təmənnasız köməyinizə görə Sizə, nəcib, xeyirxah, alicənab deputatımıza — Arif Qafar oğlu Rəhimzadəyə ürəkdən minnətdardırlar.

İllərlə, on illərlə qazandığınız el sevgisinin, el məhəbbətinin bəhrəsini prezident seçkiləri ərəfəsində bir daha gördük, yəqin etdik. Rayonumuzdakı təşviqat kampaniyasına bacarıqla rəhbərlik edən, bununla bağlı keçirilən tədbirləri yüksək səviyyədə əlaqələndirən YAP rayon təşkilatının sədri Anar Cəfərov deyəndə ki, bu kampaniyada Siz də iştirak edəcəksiniz, çoxları kimi biz də sevinmişdik. Siz prezidentliyə namizəd İlham Heydər oğlu Əliyevin gördüyü işləri, həyata keçirdiyi tədbirləri təkcə saymaqla, deməklə kifayətlənmirdiniz, həm də inandırırdınız, insanların nəzərində canlandıra bilirdiniz. Adamlar onlar üçün doğma, əziz olan Arif müəllimə nəinki diqqətlə qulaq asırdılar, həm də dediklərinə, fikirlərinə inanırdılar, əmin olurdular, bu fikirləri alqışlayırdılar. Gəzdiyimiz, gördüyümüz bütün yaşayış məntəqələrində bunun canlı şahidi olduq. On mindən çox neftçalalının toplaşdığı Neftçala şəhər stadionundakı çıxışınızın hərarətlə qarşılanmasının əsas səbəbi də təqdim etdiyiniz faktların həyatiliyində, zənginliyində idi. Seçki günü rayon sakinlərinin böyük əksəriyyətinin İlham Heydər oğlu Əliyevə verdikləri səsdə Sizin konkret faktlara söykənən tutarlı təbliğatınız da az rol oynamadı. Bu da Sizin dövlətimizin, dövlətçiliyimizin möhkəmlənməsinə, başlanmış quruculuq işlərinin daha geniş miqyasda davam etdirilməsinə, xalqın həyat səviyyəsinin getdikcə yaxşılaşmasına yeni bir töhfəniz, köməyinizdir.

Əlbəttə, Vətənə, yurda məhəbbət, saflığa, düzlüyə, haqqa, ədalətə inam öz-özünə yaranmır, ilk növbədə ana südündən gəlir, ailədə formalaşır, həyatda möhkəmlənir. Ailə həyatınızı, valideynlərinizi, nəslinizi, nəcabətinizi tanıyandan sonra bunu bir daha yəqin etdik. İnandıq, əmin olduq ki, xeyir-xahlıq, alicənablıq qanınızdan, ruhunuzdan gəlir. Nə qədər ki, canınızda can var, Siz bundan sonra da bu Vətənə xidmət edəcəksiniz, özünüz qədər inandığınız Heydər Əliyev ideyalarına, bu ideyaların layiqli davamçısına — İlham Əliyevə dəstək verəcəksiniz. Biz buna tam əminik. Ona görə ki, təhlükəsizliyimiz, gələcək xoşbəxtliyimiz məhz bu yoldadır, bu işıqlı, nurlu ideyadadır, İlham Əliyev şəxsiyyətindədir.

"GÜNDOĞAR"

Beynəlxalq müşahidəçilər seçkilər barədə:

MDB-nin müşahidəçilər missiyası: Azərbaycanda prezident seçkiləri beynəlxalq standartlara müvafiq şəraitdə keçirilib.

Avropa İttifaqı Regional Komitəsi: Azərbaycanda seçicilərin sərbəst və gizli səsvermə hüquqları təmin edilib.

Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRK PA): Seçkilərdə yüksək fəallıq müşahidə edilirdi.

Şanxay Əməkdaşlıq Təşkilatının müşahidə missiyası: Azərbaycan vətəndaşları azad keçirilən seçkilərdə maraqla iştirak edirdilər.

Avropa Mühafizəkarlar və İslahatlar qrupu: Seçicilərin azadlığı, sərbəstliyi tam təmin olunmuşdu.

Avropa Parlamentində Avropa Mühafizəkarlar və Reformistlər Qrupunun rəhbəri Kozma ZLOTOVSKİ: Müşahidəçilər məntəqələrdə seçkiləri azad surətdə izləyə bildilər.

Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti Mario DAVİDİ: Prezident seçkilərinin azad, demokratik və şəffaf şəraitdə keçirilməsi üçün hər cür şərait yaradılmışdı.

Avstraliya Parlamentinin nümayəndələr palatasının deputatı, Avstraliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun üzvü Stiv GEORGANAS: Prezident seçkiləri Azərbaycanın üzv olduğu Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə tam uyğun şəkildə keçirildi.

İlyas UMAXANOV, Rusiya Federasiya Şurasının sədr müavini: İnsanlar səsverməyə xoş əhvali-ruhiyyə ilə gəlirdilər.

Deyvid KEMBL, Avropa Parlamentinin üzvü: Ədalətli və səmərəli səsvermə keçirildi.

Miloş ALİQRUDİÇ, Serbiyalı müşahidəçi: Məntəqələrdə heç bir insident qeydə alınmayıb.

Daniel HERİŞKOVİÇ, İsraildən olan müşahidəçi: Seçkilərdə etibarlılıq, gizlilik qorunur.

Alen FİSİNİ, Avropa Parlamentinin üzvü: Heç bir pozuntuya rast gəlməmişik.

Yevgeni RYAQUZOV, MDB-nin müşahidə missiyasının nümayəndəsi: Seçicilər səsvermədə yüksək əhvali-ruhiyyə ilə iştirak edirlər.

Barbara HİLLAS, ATƏT-in ABŞ-dan olan müşahidəçisi: Seçkilərə hazırlıq yüksək səviyyədədir.

Mahmud Erol KILIÇ, İƏT-in Parlament İttifaqının baş katibi: Dünya standartlarına uyğun və şəffaf seçkilər keçirilir.

Zdenek ONDRAÇEK, ATƏT PA-nın müşahidəçisi, Çexiya Parlamentinin deputatı: Təşkilatçılığın səviyyəsindən çox razıyıq.

Peter MARÇEK, slovakiyalı deputat: Səsvermə prosesində beynəlxalq normalara ciddi riayət edildi.

Rouland SKOT, ATƏT-in ABŞ-dan olan müşahidəçisi: Getdiyimiz məntəqələrdə heç bir qanun pozuntusu qeydə alınmayıb.

Arye QUT, İsraildən olan müşahidəçi, beynəlxalq münasibətlər üzrə ekspert: Açıq və şəffaf seçkilər keçirilir.

Valeriu GHİLETCHİ, Avropa Şurası Parlament Assambleyasının moldavalı üzvü: Vətəndaşlar Prezident seçkilərində kifayət qədər fəallıq göstərirdilər.

Robert Keriq KELLİ, Avstraliya Parlamentinin üzvü: Seçki prosesi çox yüksək səviyyədə təşkil olunub.

Aliqrudic MİLOS, serbiyalı müşahidəçi: Müşahidəçilərə heç bir şikayət daxil olmayıb.

Melo Entoni CON, belçikalı müşahidəçi: Seçki məntəqələrində uzun növbələr vardı.

O GÜN MƏNTƏQƏDƏN ÇIXANLARA İLK SUALIMIZ BELƏ OLDU: SİZ KİMƏ SƏS VERDİNİZ, NİYƏ?

Aldığımız cavabları Sizə də təqdim edirik:

Allahverdi MİKAYILOV — Neftçala şəhər sakini, müəllim:

— Əgər son illər dünyanın inkişaf etmiş ölkələri belə maliyyə çətinlikləri, ciddi iqtisadi böhranlarla üz-üzə qalıbsa, biz bundan nəticə çıxarmaya bilmərik. Azərbaycanda isə həyat öz axarı ilə davam edir. İstər dövlət təşkilatları, istər özəl qurumlar, istərsə də ayrı-ayrı vətəndaşlar qurur, yaradır, ölkəmizi daha da çiçəkləndirirlər. Ona görə ki, respublikamızda sabitlikdir. İnsanlar əmin-amanlıq şəraitində yaşayırlar. Onların təhlükəsizliyi etibarlı şəkildə qorunur. Bütün bunların təşkilatçısı, qarantı isə dövlətimizin, dövlət başçımızın həyata keçirdiyi, düzgün, balanslaşdırılmış siyasətdir. Nə qədər ki, ulu öndər Hedər Əliyevin qoyduğu bu işıqlı yol, müdrik siyasət davam edəcək, biz bundan sonra da əmin-amanlıq şəraitində yaşayacağıq, qurub-yaradacağıq. Ona görə mən öz səsimi bu yolun layiqli davamçısına — möhtərəm İlham Əliyevə verdim. Yeni Prezidentlik dövründə bu Ali şəxsə yeni-yeni uğurlar arzulayıram.

Hüseynbala ASTANOV — Abasallı kənd sakini:

— Bu gün respulikamızın elə bir yeri, guşəsi yoxdur ki, orada genişmiqyaslı quruculuq, abadlıq işləri həyata keçirilməsin. Regionlardakı sürət xüsusilə dinamikdir. Bunu aydın görmək üçün uzağa getmək lazım deyil. Elə öz rayonumuza, ərazimizə, kəndimizə nəzər yetirmək kifayətdir. Bir neçə il bundan qabağa kimi yanacaq sarıdan korluq çəkirdik. İndi təbii qazdan istifadə edirik. Qazın verildiyi günün böyük sevincini bu gün də unutmamışıq. Kürün Şirvan tayındakı kəndlər boyunca uzanan yolun qaydaya salınması da əsl fərəhdir. Uzun illərdən bəri bərbad vəziyətdə olan bu yol sakinlər üçün ciddi çətinliklər yaradırdı. Rayon mərkəzinə və digər yerlərə gedərkən əziyyət çəkirdik. Şorkənd-Şirvanlı asfalt yolunun istifadəyə verilməsi, əraziyə təbii qazın verilməsi və həyata keçirilən digər abadlıq tədbirləri bizim üçün çox dəyərli töhfələrdir. Bilirik ki, dövlət bunların reallaşması üçün milyonlarla manat vəsait sərf edib. Bütün bunlardan sonra biz bu işıqlı yolun davamına necə səs verməyə bilirdik?! Cənab İlham Əliyevə səs verdik, özü də ürəkdən.

Habil ƏSƏDOV — Azərbaycan Turizm və Menecment Universitetinin tələbəsi:

— Bu gün ölkəmizə gələn çoxsaylı turistlər də Bakıda gördüklərinə heyran qalırlar. Amma çox təəssüf ki, uzun illər ölkəmizdəki gözəllikləri, tarixi abidələri, adət və ənənələrimizi dünya xalqlarına, millətlərinə təqdim edə bilməmişdik. Ona görə ki, regionlarımıza gedib-gəlmək çətin olub, kommunikasiya xidmətlərinin lazımi səviyyədə olmaması ciddi narahatlıqlar doğurub. İndi isə tamam başqadır. Regionlarımıza çəkilən müasir yollar, tikilən obyektlər, görülən abadlıq işləri, kommunikasiya xidmətləri bu yerlərin simasını kökündən dəyişib. Çoxsaylı turistləri respublikamıza çəkib gətirən də elə bunlardır. Onlar Bakı şəhəri ilə yanaşı, regionlarda da eyni rahatlıqla, gözəl şəraitlə, istirahət guşələrilə qarşılaşırlar. Milli bayramımız olan Novruz günlərində turistlərin sayının xeyli dərəcədə artması da məhz bununla bağlıdır. Nəticədə həm büdcəmiz zənginləşir, həm şirkətlər, həm də ayrı-ayrı vətəndaşlar qazanırlar. Bütün bunlar isə bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin gördüyü tədbirlər nəticəsində mümkün olub. Ona görə biz də səsimizi verdik ki, başlanmış bu işlər daha da genişlənsin.

Baloğlan AĞAMALIYEV — Bankə qəsəbə sakini, şəhid atası:

— Ordu hər bir dövlətin gücüdür, qüdrətidir. Dar gündə xalq öz ordusuna güvənir, ona arxalanır. Belə gündə Vətəni düşmənlərdən ordu qoruyur. Ötən əsrin 90-cı illərində torpaqlarımızın bir hissəsini də məhz nizami ordumuzun olmaması üzündən itirdik. Kifayət qədər təcrübəsi, hazırlığı olmayan əsgərlərimiz düşmən gülləsinə tuş gəldilər. Nə qədər qeyrətli, sayseçmə oğullarımızı itirdik. Bütün bunlara yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışından sonra son qoyuldu. Məhz bu müdrik insanın uzaqgörənliyi nəticəsində ölkəmizdə nizami ordu quruculuğuna başlandı, bu mühüm işin təməl daşları qoyuldu. Möhtərəm Prezidentimiz İlham Əliyev isə onu yüksək zirvələrə qaldırdı. Bu gün Azərbaycan Ordusu nəinki Qafqazın, dünyanın ən güclü, ən çevik silahlı qüvvələrindən biridir. 2016-cı ilin Aprel döyüşləri ordumuzun nəyə qadir olduğunu əyani şəkildə ortaya qoydu. İtirilmiş torpaqlarımızın bir hissəsini qəhrəman əsgərlərimizin canı, qanı bahasına geri qaytardıq.

Mən özüm də 90-cı illərin ağrı-acılarını yaşamışam. Övladım Qarabağ uğrundakı döyüşlərdə həlak olub. Aprel döyüşlərindəki parlaq qələbə mənim də nisgilli qəlbimə təskinlik oldu. Sözün əsl mənasında qəhrəman ordumuzla, igid əsgərlərimizlə fəxr etdim. Əmin oldum ki, daha böyük, möhtəşəm qələbələrimiz hələ qabaqdadır. Bu böyük qələbənin sevincini Şuşada, Xankəndində qeyd edəcək, yaşayacağıq. Ona görə də səsimi müsəlləh ordumuzun qurucusuna — Ali Baş Komandan İlham Əliyevə verdim.

Dövlət başçısının nitqindən irəli gələn vəzifələr rayonumuzda da geniş müzakirə olundu

Kənd təsərrüfatının inkişafı ilə bağlı növbəti mühüm tədbirin — pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsinin mart ayının sonunda keçirilməsi heç də təsadüfi deyildi. Növbəti ayda torpağa çiyid səpilməklə cari ilin yeni mövsümünə başlanılacaqdı. Məhz bu ayda Prezident İlham Əliyev ötən il pambıqçılıqda əldə olunan nəticələri geniş təhlil etməklə bu ilin vəzifələrinə, görüləcək işlərə də geniş aydınlıq gətirərək

dedi: "...Pambıqçılıq çox gəlirli sahədir. İxrac üçün bazarlar axtarmağa ehtiyac qalmır, birjalarda satılır. Pambıqçılıq emal sənayesinə böyük təkan verir. İndi pambıqtəmizləmə zavodları işləyir. Onların əlbəttə ki, daha da böyük səmərə ilə işləməsi haqqında danışacağıq. Ancaq bu sahəyə də təkan verildi. Eyni zamanda bunun yerli istehsala böyük dəstəyi oldu. Çünki indi biz özümüz həm də pestisid istehsal edirik. Bu il Sumqayıtda böyük gübrə zavodu fəaliyyətə başlayacaq. Özümüzü gübrələrlə təmin edəcəyik. Artıq Azərbaycanda suvarma texnikasının istehsalı təşkil olunub... Mingəçevir şəhərində Yüngül Sənaye Parkı yaradılmışdır... Əgər Azərbaycanda pambıqçılıq sürətlə inişaf etməsəydi, bu müəssisələrə də ehtiyac qalmazdı. Çünki bu fabriklər ancaq daxili xammal əsasında uğurla fəaliyyət göstərə bilər."

Doğrudan da pambıqçılığın inkişafı unudulmuş çox sahələri hərəkətə gətirib, hələ neçələri də hərəkətə gətiriləcək, yeniləri yaradılacaqdır. Bütün bunlar isə nəticə etibarı ilə yeni iş yerlərinin yaradılmasına, əhalinin, xüsusilə kənd əhalisinin rifah halının, dolanışıq imkanlarının yaxşılaşmasına xidmət edir.

Elə buna görə də Bərdədə keçirilən respublika müşavirəsindən sonra pambıqçılıq regionlarında, rayonlarında da dövlət başçısının nitqindən irəli gələn vəzifələr geniş müzakirə olunaraq cari il üçün tədbirlər müəyyənləşdirilir. Müvafiq qurumların, fermerlərin, torpaq mülkiyyətçilərinin, iş adamlarının iştirakı ilə rayon icra hakimiyyətinin akt salonunda keçirilən geniş toplantı da bununla bağlı idi.

Toplantını rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev açaraq martın 26-da Bərdədə pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsini vaxtında, dəqiq atılan addım kimi dəyərləndirdi. Qeyd etdi ki, Prezident İlham Əliyevin real faktları, nəticələri özündə əks etdirən nitqi bizim üçün fəaliyyət proqramıdır. Biz dövlət başçısının nitqindən irəli gələn vəzifələri dərindən öyrənməklə görüləcək işlərimizi, həyata keçiriləcək tədbirlərimizi hərtərəfli müəyyənləşdirə bilərik. Buna görə rayon rəhbəri tədbir iştirakçılarını da fəal olmağa çağırdı.

Əvvəlcə rayon kənd təsərrüfatı idarəsinin rəisi Mustafa Əliyev çıxış edərək ötən ilki mövsümə geniş aydınlıq gətirdi, pambıqçılığın inkişafına mane olan problemləri diqqətə çatdırdı. Sonra Xolqaraqaşlı kənd sakini, fermer Əlibala Səlimov, Xolqarabucaq kənd sakini, fermer Ədalət Muradov, həmin kəndin sakini, fermer Şahin Zeynalov, Boyat kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Asif Qafarov, Xolqarabucaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndə əvəzi Böyükkişi Həşimov, Sarıqamış kənd inzibati ərazi dairəsi üzrə nümayəndə İldırım Zeynallı və digərləri də yerlərdəki vəziyyətdən, narahatlıq doğuran məsələlərdən danışdılar. Məlum oldu ki, Xol zonasında suvarma suyunun çatışmaması bu sahənin inkişafını əngəlləyən ən mühüm problemdir. Əgər bu problem öz həllini tapsa, zonada məhsul istehsalını iki-üç dəfə artırmaq mümkündür. Bununla yanaşı qeyd olundu ki, istər suvarma, istərsə də şor suları lazımi yerlərə axıdan kollektor-drenaj şəbəkələrindəki nasazlıqlar da məhsuldarlığa mənfi təsir göstərən ciddi səbəblərdir. Uzun illərdən bəri lazımi səviyyədə olmayan bu sistemlərin də müasir qaydada qurulmasına böyük ehtiyac var.

Rayon suvarma sistemləri idarəsinin rəisi Elçin Əsədov, Baş Mil-Muğan Kollektoru İstismarı İdarəsinin rəisi Bulat Ağabəyov, Aşağı Muğan Meliorativ Sistemlərinin İstismarı İdarəsinin rəisi Azər İsmayılov, MKT-İK MMC-nin Neftçala filialının rəhbəri Bahəddin Leysanov qaldırılan məsələlərlə, problemlərlə bağlı fikirlərini bildirdilər, təkliflərini irəli sürdülər. Qeyd olundu ki, Neftçala Magistral Kanalının tezliklə tam şəkildə istifadəyə verilməsi Xol zonasındakı su qıtlığını aradan qaldırar. Suvarma və kollektor-drenaj şəbəkələrinin günün tələbləri səviyyəsində qurulması üçün əlavə vəsaitlər ayrılmalı, lazımi tədbirlər görülməlidir. Bununla yanaşı həmin idarələrin rəhbərlərinə tapşırıldı ki, bir sıra problemlərin həllində özlərinin daxili imkanlarından da maksimum səmərəliliklə istifadə etsinlər.

Toplantıda iştirak edən Prezident Administrasiyasının məsul işçisi İbrahim Mustafayev son illər pambıqçılığın inkişafına göstərilən böyük dövlət dəstəyini, bununla əlaqədar qəbul olunmuş Dövlət Proqramını qeyd etməklə yanaşı, Prezident İlham Əliyevin respublika müşavirəsindəki nitqindən irəli gələn mühüm məsələlərlə bağlı rayon pambıqçılarının qarşısında duran vəzifələrə də geniş aydınlıq gətirdi.

SOYQIRIM HADİSƏLƏRİNDƏN 100 İL ÖTSƏ DƏ...

Əsrlər boyunca başımıza gətirilən qanlı hadisələrdə, faciələrdə digər amillərlə yanaşı erməni məkri, erməni hiyləsi də az rol oynamayıb. Zaman-zaman torpaqlarımıza göz dikən, xalqımıza qənim kəsilən ermənilər imkan yarandıqca fürsətlərini fövtə verməmiş, çirkin niyyətlərini həyata keçirmək üçün ən ağır cinayətlərdən belə çəkinməmişlər. Hər belə hiylələr, fürsəti fövtə verməmələr qanlı olaylarla müşayiət olunduğundan xalqımıza böyük maddi və mənəvi zərbələr dəymiş, ona qarşı çoxlu haqsızlıqlar törədilmişdir. Son dövrlərin hadisələri ermənilərin iç üzlərini, onların arxasında duran qüvvələri, havadarlarını bir daha əyani şəkildə açıb bizə göstərdi.

Tariximizin ən qanlı olaylarından sayılan 1918-1920-ci illərin dəhşətli hadisələri də məhz belə qüvvələrin, havadarların köməyilə həyata keçirilmişdi. 1918-ci ilin mart-aprel aylarında bolşevik cildinə girən erməni faşistləri öz havadarlarına arxalanaraq Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda, Neftçalada və digər ərazilərdə 50 mindən çox azərbaycanlını xüsusi amansızlıqla qətlə yetirmişdilər. Təkcə mart ayının 3 günü ərzində Bakı şəhərində 30 minədək soydaşımız xüsusi amansızlıqla və qəddarlıqla öldürülmüşdü. Bunun ardınca Şamaxı qəzasının 58 kəndi viran edilmiş, 7 minədək adam, o cümlədən 1653 qadın, 965 uşaq qılıncdan keçirilmişdi.

Ümummilli lider Heydər Əliyevin fərmanı ilə elan olunmuş "31 mart — Azərbaycanlıların Soyqırımı Günü" xalqımızı daim mübariz, ayıq-sayıq olmağa çağırır. Hər ilin həmin günündə keçirilən anma mərasimləri soyqırım qurbanlarının xatirəsinə ehtiramla yanaşı, həm də xalqımızı ümumi düşmənə qarşı birləşdirir.

Artıq o vaxtdan 100 il ötür. Azərbaycan Prezidenti İlham Əliyevin bununla əlaqədar imzaladığı sərəncam böyük əhəmiyyət kəsb edir. Sərəncamda ermənilərin soyqırım siyasətinin mahiyyətinə, tarixinə nəzər salan dövlət başçısı xalqımızı məkrli düşmənə qarşı çətin mübarizədə bir olmağa çağırır. Bununla yanaşı bu ali dövlət sənədi ermənilərin törətdikləri fəlakətləri beynəlxalq aləmdə daha geniş miqyasda təbliğ etməyə imkan verir.

Soyqırım hadisələrinin dünya miqyasında tanıdılmasında Heydər Əliyev Fondunun da müstəsna xidmətləri vardır. Fondun dəstəyi ilə xarici ölkələrdə bununla bağlı keçirilən silsilə tədbirlər beynəlxalq ictimaiyyətin bu hadisələrin mahiyyətini daha dərindən anlamalarına şərait yaradır.

Soyqırım hadisələri ilə bağlı respublikamızın paytaxtı Bakı şəhərində, ayrı-ayrı şəhər və rayonlarda olduğu kimi Neftçalada da silsilə tədbirlər keçirilmişdir. Heydər Əliyev Mərkəzində, rayon təhsil şöbəsində, rayon mərkəzi xəstəxanasında, rayon mərkəzləşdirilmiş kitabxana sistemində, rayon tarix-diyarşünaslıq muzeyində və digər təşkilatlarda təşkil olunan tədbirlər xüsusilə təsirli olmuşdur. Ümumiyyətlə, rayonda elə bir idarə, müəssisə, təşkilat olmamışdır ki, bu məsələyə öz münasibətini bildirməsin. Bütün tədbirlərdə xalqımızın başına gətirilən qanlı hadisələr ürək ağrısı ilə yad olunmuş, düşmənə nifrət hissi aşılanmışdır.

Martın 31-də keçirilən ümumrayon tədbiri xüsusilə yaddaqalan oldu. Həmin gün soyqırım qurbanlarının xatirəsini əbədiləşdirən abidənin ətrafına çoxlu sayda adam toplaşmışdı. Təyin onunan vaxtda rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, başçı yanında fəaliyyət göstərən şuranın üzvləri də buraya gəldilər. Abidə önünə tər çiçəklər düzüldü, faciə qurbanlarının əziz xatirəsi ehtiramla yad olundu.

Sonra tədbir Heydər Əliyev Mərkəzində davam etdirildi. Tədbir iştirakçıları məktəblilərin əl işlərindən, rəsm nümunələrindən ibarət sərgilərinə böyük maraqla tamaşa etdilər. Mart hadisələrini özündə əks etdirən bu nümunələrə həyəcansız baxmaq mümkün deyildi. Şagirdlərin ifasında səslənən şeirlər, ədəbi-bədii nümunələr də onların Vətən sevgisindən, düşmənə sonsuz nifrətindən xəbər verirdi.

Orduya yaz çağırışı

BU DƏFƏ GƏNCLƏR ABİDƏ ÖNÜNDƏN YOLA SALINDILAR

Deyirlər torpaq uğrunda öləndə Vətən olur. Son dövrdə torpaqlarımızın bütövlüyü uğrunda nə qədər şəhid vermişik. 2016-cı ilin Aprel döyüşlərində də itkilərimiz az olmadı. Aşağı Qaramanlı kəndində bu

döyüşlərdə şəhid olan həmyerlilərimizin şərəfinə ucaldılan möhtəşəm abidə hər birimiz üçün and yeri, gənclər üçün vətənpərvərlik nümunəsidir. Son vaxtlar bu mövzudakı bir sıra tədbirlərin abidə önündə keçirilməsi Aprel şəhidlərimizə olan hörmət və ehtiramdan irəli gəlir.

Bir neçə gün bundan qabaq burada təşkil olunan daha bir unudulmaz tədbirin iştirakçısı olduq. Orduya yaz çağırışı ilə əlaqədar bir qrup çağırışçının əsgəri xidmətə abidə önündən yola salınması doğrudan da yaddaqalan oldu.

Çoxlu sayda insanın toplaşdığı mərasim Dövlət himninin səslənməsi ilə başlandı

Sonra söz rayon icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərova verildi. Aprelin 11-dəki prezident seçkilərində İlham Əliyevin möhtəşəm qələbəsini dilə gətirən Vurğun müəllim qeyd etdi ki, Ali Baş Komandanın rəhbərliyi altında ordumuz daha da güclənərək yenilməz qüvvəyə çevriləcək. Sözünün sonunda o, ordu sıralarına yola düşən çağırışçıları təbrik edərək onları Vətənə sədaqətlə xidmət etməyə çağırdı.



Rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqova da bu səmimi təbrikə ürəkdən qoşularaq gənclərə mətin olmağı, rayonumuzun döyüş ənənələrini laiqincə davam etdirməyi arzuladı.

Daha sonra rayon səfərbərlik və hərbi xidmətə çağırış şöbəsinin rəisi, polkovnik-leytenant Turan Əliyev dedi:

- Ölkəmizdə ordu quruculuğu ilə bağlı görülən işlər, həyata keçirilən tədbirlər göz qabağındadır. Bu gün biz sözün əsl mənasında ordumuzla fəxr edə bilərik. Ordu bir qayda olaraq yeni çağırışlar, yeni qüvvələr hesabına komplektləşərək möhkəmlənir. İndiyə kimi çağırışçı gəncləri xidmətə şöbəmizin qarşısından yola salırdıq. Bu gün isə bu iş üçün bu möhtəşəm abidənin önünü seçmişik. Elə bilirəm gənclərimiz bu şərəfə nail olacaqlar. Vətəni, müqəddəs torpaqlarımızı Aprel döyüşlərinin qəhrəmanları kimi qoruyacaqlar. Milli Qəhrəman mayor Samid İmanovdan, gizir Elimdar Səfərovdan nümunə götürəcəklər, doğma Neftçalamızın adını həmişə uca tutacaqlar. Xidməti vəzifənizdə sizə uğur arzulayıram, əziz gənclər. Sağ salamat gedin, qələbə ilə, zəfərlə qayıdın.

Çıxış edən rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidov, rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimov, şəhid atası Baloğlan Ağamalıyev də gənclərə ürək sözlərini bildirdilər, onlara Vətənin keşiyində həmişə sayıq dayanmağı arzuladılar.

Aşağı Qaramanlı kənd ümumi orta məktəbinin şagirdlərinin hazırladıqları ədəbi-bədii kompozisiyanı həyəcansız dinləmək olmurdu. Qəhrəmanları vəsf edən şeirlər yola düşən gəncləri də qəhrəmanlığa səsləyirdi. Sahil Abdullayevin ifa etdiyi "Cənnət mələyi" mahnısı Elimdar Səfərovun mərd simasını gözlərimiz önündə yenidən canlandırırdı.

Çağırışçı yoldaşları adından söz alan Aslan Ağacanov bildirdi ki, onlar da Ana Vətəni Aprel

şəhidləri kimi sevəcəklər, lazım gəlsə bu yolda döyüşəcəklər, hünər göstərəcəklər.

Gənclərin hərbi xidmətə yola salınması mərasimi başa çatdıqdan sonra çağırışçılar müqəddəs üçrəngli bayrağımızı öpərək onlar üçün ayrılmış rahat avtobusa əyləşdilər. Yüzlərlə insan sabahın əsgərlərinə yaxşı yol dedi, onlara can sağlığı, nümunəvi xidmət arzuladı.

Murad ƏHMƏDOV

Neftçala-Salyan, Şorkənd-Şirvanlı yolları hazırdır, Neftçala-Xolqaraqaşlı yolunda isə qızğın iş gedir

Deyirlər mədəniyyət yoldan başlayır. Yollarımız düzəldikcə, yenidən qurulduqca bunu bir daha yəqin edirik. Dünənə qədər Kürün Şirvan tayındakı yolla hərəkət etmək, Şorkənd kəndindən Bankə qəsəbəsinə gəlmək doğrudan da çox çətin, müşkül məsələ idi. Dağılıb tökülmüş yolla irəliləmək mümkün deyildi. Adamlar bir kənddən digərinə böyük çətinliklə gedib çıxırdılar. Maşınların vaxtından qabaq sıradan çıxması sahiblərindən əlavə xərc tələb edirdi. Bütün bunlar isə ərazidə yaşayan çoxlu sayda insanların narahatlığına səbəb olurdu. Neftçala-Salyan, Neftçala-Xolqaraqaşlı yollarındakı vəziyyət də Şorkənd-Bankə yolundan fərqlənmirdi. Bu yollarda hərəkət etmək də gündən-günə çətinləşdiyindən onların da tamamilə yenidən qurulmasına, əsaslı təmirə böyük ehtiyacları vardı.

Bunlar dünən belə idi. Bu gün isə yollarımızda başqa mənzərə var. İnşaatçıların səyi sayəsində Şorkənddən üzü bəri gələn yol nəinki Bankə qəsəbəsinə, Xəzərin sahilində yerləşən Şirvanlı kəndinə kimi uzadıldı. İndi adamlar bu yolla rahat gedib-gəlir, vaxt itirmədən mənzil başına çatırlar. Hələ o ərazinin yüzlərlə, minlərlə sakini isti yay günlərində Şirvanlıdakı çimərlikdə də dincəlir, sağlamlıqlarını bərpa edə bilirlər. Ötən yayda biz bunun canlı şahidi olduq. Öz kəndlərimizlə, yaşayış məntəqələrimizlə yanaşı qonşu rayonlardan buraya çoxlu sayda insanın gəlməsi də yolun rahatlığı ilə bağlı idi.

Otuz yeddi min əhalinin yaşadığı 21 yaşayış məntəqəsini birləşdirən Şorkənd-Beştalı-Bankə-Şirvanlı avtomobil yolu istifadəyə veriləndə, bu yolla rahat gedib gələndə nə qədər sevinmişdiksə, nəqliyyatın daha intensiv işlədiyi Neftçala-Salyan avtomobil yolunun təmirinə başlananda daha çox fərəh hissi keçirmişdik. Bu yolun çəkilişindəki qaynarlıq, mütəşəkkillik diqqəti xüsusilə cəlb edirdi. Buraya ən müasir mexanizmlər, texnikalar cəlb olunduğundan işlər böyük sürətlə davam edirdi. Gün ərzində orta hesabla beş kilometrə yaxın "qara örtük" döşənir, yol sürətlə Salyana doğru irəliləyirdi. Məhz bu mütəşəkkiliyin nəticəsidir ki, yolun yenidən qurulması vaxtından əvvəl yerinə yetirildi.

Minlərlə insanın yaşadığı Xol zonasını rayon mərkəzi ilə birləşdirən Neftçala-Xolqaraqaşlı yolunun uzun illərdən bəri əsaslı təmir olunması da gediş-gəlişi xeyli dərəcədə çətinləşdirir, əhalini ciddi narahat edirdi. Artıq bu narahatlığa da əsas yoxdur. İnşaatçılar bu yolu da qaydaya salmağa başlayıblar. Burada da qızğın iş gedir. Yəqin tezliklə Neftçala-Xolqaraqaşlı yolu da əsaslı təmirdən sonra istifadəyə veriləcəkdir. Həmin günü intizarla, səbirsizliklə gözləyən insanlar göstərdiyi qayğı və diqqətə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirirlər.

Ağalar AĞAYEV

“Made in Azerbaijan” brendi – “XƏZƏR” AVTOMOBİLLƏRİ NEFTÇALANI DÜNYADA TANIDACAQ

Martın 29-da Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan-İran biznes forumu biz neftçalalılar üçün ikiqat sevinc oldu. Forumdan əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə Neftçala Sənaye məhəlləsi və burada yaradılan “Azərmaş” ASC və “İran Khodpo” Şirkətinin birgə layihəsi olan avtomobil zavodunun təntənəli açılış mərasimi oldu. Yəqin ki, həyəcanla dolu bu sevincli dəqiqələri uzun zaman unutmayacağıq, yaşayacağıq. Bu, doğma Neftçalamızın tarixinə yazılan qızıl səhifələrdəndir.

Əvvəlcə avtomobil zavodu barədə videoçarx nümayiş olundu. Zavodla bağlı videobağlantıda "Azərmaş" ASC-nin İdarə Heyətinin sədri Emin Axundov dedi:

-Möhtərəm cənab prezidentlər.

Sizi Neftçala Sənaye Məhəlləsində "Azərmaş" ASC və "İran Khodro" şirkətlərinin birgə yaratdığı "Xəzər" avtomobil zavodundan salamlamaqdan böyük şərəf hissi duyuruq.

Dəyəri 15 milyon ABŞ dolları və səhmlərinin 75 faizi "Azərmaş" ASC-yə, 25 faizi isə "İran Khodro" şirkətinə məxsus olan avtomobil zavodunda İran İslam Respublikasının və Avropanın aparıcı ölkələrinin müasir texnologiyaları əsasında müxtəlif avtomobil modelləri istehsal olunacaq. Bu avtomobillər "Made in Azerbaijan" brendi altında həm yerli, həm də xarici bazarlara çıxarılacaq.

"İran Khodro" şirkətinin baş icraçı direktoru Haşem Yekke Zarə dedi:

- Azərbaycan Respublikasının Prezidenti, möhtərəm cənab İlham Əliyevi və İran İslam Respublikasının Prezidenti cənab Həsən Ruhanini salamlayıb hörmət və ehtiramımı bildirirəm. İftixar hissi ilə qeyd edirəm ki, bu gün "Xəzər" avtomobil istehsalı müəssisəsi açılır. Bu müəssisə ilkin mərhələdə - ildə 10 min avtomobilin istehsalı ilə işə başlayacaq. Sonrakı fazada avtomobillərin istehsalının 15 minə çatdırılması planlaşdırılır. Yaxın gələcəkdə isə 50 min avtomobilin istehsalı nəzərdə tutulub. İstehsal olunan avtomobillər yerli və xarici bazarlarda satılacaqdır. Bu avtomobillər qabaqcıl texnologiya və "Avro 5" standartlarına uyğundur. İnşallah, Azərbaycanda bu avtomobillərin satışı həyata keçiriləcəkdir. Belə qərara gəlmişik ki, bu avtomobillərin hissələrinin istehsalını da təşkil edək və Azərbaycanın özəl sektorunun sərmayə qoyuluşu ilə bununla əlaqədar şirkət yaradaq. Burada buraxılacaq avtomobillər Azərbaycanda hazırlanacaq hissələrin hesabına istehsal olunacaq.

Emin Axundov: Möhtərəm cənab prezidentlər, "Xəzər" avtomobil zavodunu işə salmaqla bizə böyük şərəf vermiş olarsınız.

Prezident İlham Əliyev və Prezident Həsən Ruhani "Xəzər" avtomobil zavodunun açılışını bildirən düyməni basdılar.

Dövlət başçılarına videoçarx əsasında bu müəssisənin fəaliyyəti və istehsal prosesi barədə məlumat verildi.

Zavodda istehsal edilmiş ilk avtomobil nümayiş olundu. Bildirildi ki, avtomobil beynəlxalq təhlükəsizlik standartlarına tam uyğundur.

Bu, doğrudan da böyük nailiyyətdir. Kiçik Neftçalanın böyük uğurudur. Necə sevinməyəsən, necə qurur hissi keçirməyəsən bundan?! Ağıla gəlməyən işlər, layihələr çox qısa zaman kəsiyində reallaşırsa, kerçəkləşirsə bu, Azərbaycanımızın gücü, qüdrəti deyilmi?! Məhz bu güc, qüdrət nəticəsində doğma Neftçalamız da inkişaf edərək müasirləşir, Prezident İlham Əliyevin qayğı və diqqəti sayəsində ölkəmiz ən gözəl guşələrdən birinə çevrilir. “Made in Azerbaijan” brendi altında həm yerli, həm də xarici bazarlara çıxarılacaq “Xəzər” avtomobilləri doğma rayonumuzu uzaq-uzaq ünvanlarda tanıdacaqsa, biz buna görə dövlətimizə, dövlətimizin başçısına necə minnətdarlığımızı bildirməyək?! Özü də ürəkdən, içimizdən, ruhumuzdan gələn böyük sevgi ilə.

XXX

Aprelin 5-də bir qrup iqtisadçı ekspert və KİV nümayəndəsinin Neftçala Sənaye Məhəlləsinə səfəri də məhz “made in Azerbaijan” brendi adı altında həm yerli, həm də xarici bazarlara çıxan məhsullarla tanışlıq xarakteri daşıyırdı. Bununla bağlı ayrı-ayrı televiziya kanallarında diqqəti çəkən videogörüntülər yayımlandı, respublika mətbuatında yazılar dərc olundu, iqtisadçı ekspertlər maraqlı müsahibələr, açıqlamalar verdilər. Bütün bunlar zavodun istehsal gücü, imkanları, perspektivləri barədəki məlumatları xeyli dərəcədə zənginləşdirdi.

“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasının növbəti mərhələsi də yaddaqalan oldu

Artıq beşinci ildir orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısı İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halını alıb. Bu tur-aksiyasının növbəti mərhələsi də maraqlı keçib. IX tur-aksiyada 84 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından, ümumilikdə, 3 min 400-dək şagird iştirak edib.

Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, onlarda Prezident İlham Əliyevin qətiyyəti sayəsində respublikamızda yaranan dinamik sosial-iqtisadi inkişaf, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə əyani təsəvvür yaratmaqdır.

Ötən müddətdə hər il iki dəfə olmaqla 7 istiqamət üzrə (Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər) 8 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 16 min 860 nəfər iştirak edib. Martın 15-18 və 26-29 tarixlərini əhatə edən növbəti 9-cu tur-aksiyada isə 6 istiqamət üzrə Naxçıvan MR də daxil olmaqla 84 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından, ümumilikdə, 3393 nəfər iştirak edib. Bununla da, "Ölkəmizi tanıyaq" tur-aksiyalarında iştirak edən məktəblilərin sayı 20 mindən çox olub.

Rayonumuzun məktəbliləri də tur-aksiyalarlda fəal işitrak etmişlər. Martın 15-də Neftçala şəhərində ulu öndər Heydər Əliyevin adını daşıyan meydanda Quba-Qusar-Xaçmaz marşrutu üzrə ekskursiyaya çıxan məktəbliləri yola salmaq üçün toplaşan rayon rəhbərliyi, valideynlər, müəllimlər şagirdlərə son tapşırıq və tövsiyələrini vermiş, onlara uğurlu yol arzulamışlar. Rayon icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqovanın çıxışı maraqla dinlənilmişdir. Sonra tur-aksiya iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzmüşlər. Bir gün əvvəl isə onlar ulu öndərin adını daşıyan prospektdə ağac tingləri əkmişdilər.

Rayonumuzdan olan şagirdlərin də qatıldığı tur-aksiyanın iştirakçıları Quba, Qusar və Xaçmaz rayonlarının tarixi abidələri, görməli yerləri ilə tanış olmuş, müxtəlif tədbirlərdə iştirak etmişlər. Bütün bunlar onların dünyagörüşünün formalaşmasına, məlumatlarının genişlənməsinə müsbət təsir göstərmişdir.

Quba-Qusar-Xaçmaz bölgəsi respublikamızın ən gəzməli, görməli yerlərindəndir. Son illər bu regionda da az iş görülməyib. Aqrar sahənin, emal müəssisələrinin, turizmin inkişafı bu ərazini daha cəlbedici edib. Gəzinti boyunca aksiya iştirakçıları bütün bunlar barədə geniş məlumat əldə etmişlər. Quba Soyqırımı Memarlıq Kompleksi onlar üçün xüsusilə unudulmaz olub. Şagirdlər Kompleksdə erməni vandallarının törətdikləri vəhşiliklərlə əyani şəkildə tanış olmuşlar. Bu vəhşiliklər şagirdləri mütəəssir etmiş, eyni zamanda onların düşmənə olan nifrətini daha da artırmışdır.

Ölkəmizin bu dilbər guşəsi mültikultural ənənələri ilə də diqqəti cəlb edir. Bölgədə müxtəlif xalqların nümayəndələrinin əsrlərdən bəri dinc, əmin-amanlıq şəraitində yaşamaları, həm öz mədəniyyətlərini, həm də Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmələri bunu əyani şəkildə nümayiş etdirir. Şagirdlərin yəhudilərin sıx məskunlaşdığı Qırmızı qəsəbəyə, Quba xalçaçılıq emalatxanasına, Cümə məscidinə, Tağlı körpüyə, Xınalıq yolundakı şələləyə, qolf meydançasına ekskursiyaları onlar üçün unudulmaz olmuşdur.

Ölkəmizin şimal bölgəsi özünün iqtisadiyyatı ilə yanaşı turizm imkanları baxımından da cəlbedicidir. Son illərdə bu bölgədə turizm infrastrukturunun yaradılması, sürətli inkişafı istiqamətində görülən işlər bu əraziyə diqqəti daha da artırıb. Qusar rayonunda “Şahdağ” Turizm Mərkəzinə gələn turistlərin sayının ildən-ilə artması bunu bir daha təsdiqləyir. Şahdağ ilin bütün fəsillərində gözəldir. Məktəblilər bu məkandan xoş təəssüratla ayrılmışlar. Onlar Qusar şəhərinin görməli yerlərini də gəzmiş, Həzrə kəndindəki “Şeyx Cüneyd” türbəsi ilə yaxından tanış olmuşlar.

Tur-aksiya zamanı şagirdlərin asudə vaxtlarının, mədəni istirahətlərinin təşkili də unudulmamışdır. “Nə?, Harada?, Nə vaxt?” intellektual oyunları bu cəhətdən unudulmaz olmuşdur. Məktəblilərimiz bu oyunlarda fəal iştirak etmiş, bir çox cəhətlərdən qabiliyyətlərinə, bilik və bacarıqlarına görə fərqlənmişlər.

Əvvəlki tur-aksiyalarda respublikamızın digər bölgələri ilə yaxından tanış olan, bilik və məlumatlarını xeyli dərəcədə zənginləşdirən rayonumuzun məktəbliləri bu dəfə respublikamızın ən gözəl guşələrindən olan Quba-Qusar-Xaçmaz bölgəsindən zəngin təəssüratla qayıdıblar. Martın 15-dən 18-nə kimi davam edən bu maraqlı tur-aksiya yəqin ki, şagirdlərin qəlbində uzun illər yaşayacaq, onları daha yaxşı oxumağa, ölkəmizin layiqli vətəndaşları olmağa ruhlandıracaq.

Murad ƏHMƏDOV

RESPUBLİKAMIZDAKI İNKİŞAF MALİYYƏ İMKANLARIMIZI DA GENİŞLƏNDİRİR

Müsahibimiz rayon maliyyə idarəsinin rəisi Rəşid Manafovdur

— Rəşid müəllim, Azərbaycan özünün coşqun inkişaf dövrünü yaşayır. Təkcə respublikamızın paytaxtı deyil, regionlar da böyük sürətlə dəyişərək müasirləşir. Dünənə qədər Bakıya can atan insanlar bu gün regionlarda yaşamağa, işləməyə üstünlük verirlər. Təcrübəli maliyyəçi kimi sizcə, bu inkişaf, tərəqqi haradan qaynaqlanır. Ölkəmizin sabahını necə görürsünüz?

— Sualınıza sözlə yox, real faktlarla aydınlıq gətirmək istəyirəm. Azərbaycan təbii sərvətlərilə həmişə zəngin olub. Amma çox təəssüf ki, xeyrini, bəhrəsini özümüzdən çox özgələr görüb. İndi isə xalq öz sərvətinin sahibidir. Ondan yetərincə faydalanır, bəhrələnir. Əlbəttə, ulu öndər Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti sayəsində. Bu dahi insan dünyanın neft nəhənglərinin iştirakı ilə Bakıda “Əsrin müqaviləsi”ni imzalamaqla həm ölkənin uzunmüddətli sabitliyinə nail oldu, həm də böyük sərmayənin reallaşmasına, gerçəkləşməsinə şərait yaratdı. Məhz neftdən gələn gəlir hesabına Azərbaycan sürətli tərəqqi yoluna qədəm qoydu, durmadan inkişaf etməyə, dünyada, beynəlxalq aləmdə tanınmağa başladı.



— Xalqımızın xoşbəxtliyi onda oldu ki, bütün ömrünü Vətəninin tərəqqisinə, inkişafına sərf etmiş ulu öndər Heydər Əliyevdən sonra bu yolu onun layiqli yetirməsi, siyasi varisi İlham Əliyev davam etdirdi.

— Əslində bu özü də ümummilli liderin uzaqgörənliyinin, xalqına, millətinə sədaqətinin, sevgisinin bir göstəricisidir. İlham Əliyevdəki yüksək keyfiyyətləri görən, ona inanan, etibar edən ulu öndər böyük inamla da xalqına müraciət edərək 2003-cü ilin prezident seçkilərində onu bu işıqlı insana səs verməyə çağırdı. Xalq da öz müdrik liderinin çağırışına səs verərək bundan sonrakı taleyini yeni dövrün yeni liderinə — İlham Əliyevə etibar etdi.

— Həyat dönə-dönə sübut etdi ki, nə ümummilli lider, nə də xalq seçimində yanılmayıb, düzgün, ağıllı qərar qəbul etməklə öz xoşbəxt sabahına, uğurlu gələcəyinə səs verib.

— Həqiqətən belədir. Son 15 ildə Azərbaycan gözlərimizin önündə dəyişərək inkişaf edib. Özü də hərtərəfli, bütövlükdə. Bu gün ölkəmizin regionlarını paytaxtından ayırmaq olmur. Azərbaycan beynəlxalq aləmdəki mövqelərini xeyli dərəcədə möhkəmləndirib. Milli, dini zəmində ayrı-seçkiliyin baş alıb getdiyi bir vaxtda ölkəmizdəki sabitlik, inkişaf dünyaya bir nümunədir. Respublikamızdakı sosial-iqtisadi inkişafın beynəlxalq miqyasda diqqətlə izlənilməsi, öyrənilməsi heç də təsadüfi deyil. Bu sahədə araşdırma aparan təşkilatlar, ekspertlər dünyanın inkişaf etməkdə olan ölkələrinə Azərbaycanın iqtisadi modelini öyrənməyə, bunu tətbiq etməyə çağırırlar. Son illər ölkəmiz dünyanı bürüyən maliyyə böhranları şəraitində belə yeni uğurlara imza atıb, nailiyyətlərini genişləndirərək iqtisadi göstəricilərini daha da yaxşılaşdırıb. Biz buna görə dövlət başçımızın düşünülmüş, müdrik siyasətinə minnətdar olmalıyıq. Məhz bütün bunlara görə xalq öz Prezidentini sevir, inanır və onu dəstəkləməklə ətrafında sıx birləşir. Ölkəmizdəki sabitliyi, əmin-amanlığı təmin edən də elə xalqla dövlətin, dövlət başçısının arasındakı sıx birlikdir.

— Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi sayəsində ölkəmizin inkişafına, xalqın rifahına hesablanmış neft müqavilələri necə çətin şəraitdə imzalanmışdısa, qiymətli sərvətimizi Avropaya daşıyacaq Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərləri də Prezident İlham Əliyevin böyük səyləri sayəsində gerçəkləşmişdi.

— İndi isə Azərbaycan qazını dünya bazarına çıxaracaq TAP, TANAP layihələri reallaşmaqdadır. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı Asiya ilə Avropanı birləşdirdi. “Azəri-Çıraq-Günəşli” neft yatağının istismar müddətinin 2050-ci ilə qədər uzadılması ölkəmizə milyardlarla dollar gəlir gətirəcək. Uzun fasilədən sonra Cocuq Mərcanlının tamamilə yenidən qurulması əyilməz ruhumuzun rəmzidir. Həyata keçirilən geniş islahatlar kursu iqtisadiyyatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatında uğurların genişlənməsinə, maliyyə imkanlarımızın yaxşılaşmasına şərait yaradır. Son illər rayonumuzdakı böyük quruculuq işləri, yeni-yeni sosial layihələrin reallaşması da maliyyə imkanlarımızın genişlənməsi ilə bağlıdır. Bu layihələr isə bir deyil, iki deyil, onlarladır. Sabah isə daha möhtəşəm layihələrin şahidi olacağıq. Bütün bunlar isə doğma Neftçalamızın daha da gözəlləşərək müasirləşməsinə, yeni iş yerlərinin açılmasına, əhalinin dolanışıq səviyyəsinin yüksəlməsinə xidmət edir.

Onu da deyim ki, əvvəllər büdcəmizin böyük hissəsini dotasiya şəklində respublika büdcəsindən alırdıq. İndi nəzərdə tutulan məbləği özümüz təmin edirik. Bu isə məsuliyyətimizi daha da artırır. Bunu nəzərə alaraq əməkdaşlarımız vergi orqanları ilə birlikdə rayon büdcəsinin təminatı üçün səylərini durmadan artırırlar. Büdcədən maliyyələşən təşkilatların işçiləri, pensiyaçılar və bu kateqoriyadan olan digər insanlar əmək haqlarını, pensiyalarını, sosial müavinətlərini vaxtlı-vaxtında ala bilirlərsə, deməli, çəkilən zəhmət hədər getmir.

— Rəşid müəllim, Siz təkcə təcrübəli maliyyəçi deyil, eyni zamanda gözəl ziyalı, fəal ictimaiyyətçisiniz. Elə bir tədbir olmur ki, orada yaxından iştirak etməyəsiniz. Keçirilən növbəti prezident seçkiləri ilə bağlı fikirlərinizi bilmək də maraqlı olardı.

— Yenidən ötən əsrin 90-cı illərinə qayıtsaydıq, bəlkə də bu suala cavab vermək çətin olardı. İndi isə hər şey göz qabağındadır. Daha təbliğata, təşviqata da bir o qədər ehtiyac yoxdur. Bu barədə yuxarıda da fikirlərimi bildirdim. Xalq da əvvəlki xalq deyil. Bu gün o ağı qaradan daha yaxşı seçir. Boş söz-söhbətə yox, gördüklərinə, reallığa inanır. Ona görə bu dəfə də yanılmadı, özünün düzgün qərarını verdi, bundan sonrakı taleyini də idarəetmədə zəngin təcrübə qazanmış müdrik insana — İlham Heydər oğlu Əliyevə etibar etdi. Deməli, həyatımız daha sürətlə irəli gedəcək, biz daha möhtəşəm uğurların şahidi olacağıq.

— Suallarımıza ətraflı cavab verdiyinizə, fikirlərinizi oxucularımızla bölüşdüyünüzə görə Sizə təşəkkürümüzü bildiririk.

— Qəzetimizin çoxminli oxucuları, rayon sakinləri ilə canlı əlaqə yaratdığınıza görə bu səmimi təşəkkürdən Sizə də pay düşür. Biz də Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Müsahibəni apardı: H.ƏSƏDOV

Azərbaycan Xalq Cümhuriyyətinin 100 ili – möhtəşəm tariximiz

Məndə möhkəm bir inam var. Yüz ildən sonra, 2118-ci ildə gənc Azərbaycan məktəblisi qarşısına dəftər qoyaraq tarixi mövzudakı inşasına belə başlayacaq: “Azərbaycanın rəsmi müstəqil dövlətçilik tarixi 1918-ci ilin may ayının 28-indən başlayır.” Mən həmin məktəbliyə indidən həsəd aparıram. Çünkü o azad dövlətçiliyimizin, dövlət kimi varlığımızın 200 illiyini təsvir edəcək. Onda bütün milli, irqi, dini çarpışmalar arxada qalacaq, şəxsi ambisiyalar köhnələcək, şərin, eybəcərliyin, antihümanizmin bütün təzahürləri tarixin arxivində olacaqdır.

Düz yetmiş il sovet imperiyası bizə təlqin etməyə çalışdı ki, Böyük Oktyabr sosialist inqilabına qədər hamımız avam və savadsız bir kütlədən ibarət olmuşuq. Guya Oktyabr İnqilabından sonra bizdə kütləvi savadsızlığın ləğvi başlanıb. Keçmiş sivil inkişafımızı unutdurmaq üçün ən gözəl vasitəyə əl atılıb — min iki yüz ildən çox istifadə etdiyimiz əski əlifba ləğv edilib. Əlbəttə, əlifbanı ləğv etmək olar, millətin adını, familiyasını da dəyişmək olar, amma qanını, qan yaddaşını, gen yaddaşını dəyişmək qeyri-mümkündür.

Maraqlıdır, 1918-ci ildə paradoksal bir hadisə baş verdi. Bir dəstə rus təhsilli, rus dilli türk-Azərbaycan-müsəlman ziyalısı bir yerə yığılaraq Şərqdə ilk hüquqi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətini yaratdı. Çoxəsrlik rus imperiyası onların davranış və təzahürünü dəyişsə də, qan yaddaşını, gen yaddaşını dəyişə bilməmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət dili Azərbaycan dili idi. AXC-ni yaradan insanlar Şərq dilləri — türk, ərəb, fars dilləri ilə yanaşı Avropa — ingilis, fransız və alman dillərini də mükəmməl bilirdilər. Təsəvvür edin, parlamentin katibi olan Cəfər Cabbarlı həm də çox güclü steneoqraf idi, bütün iclasların steneoqrammmasını o yazırdı. Onlar seçilmişlər idi. Nə qədər qəribə olsa da C.Cabbarlının “Firuzə” hekayəsini bu gün biz tərcümədən oxuyuruq, çünki bu dahi şəxsiyyət həmin əsəri rus dilində yazmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti bizə nə verdi? İlk növbədə AXC Azərbaycan xalqına müsəlman Şərqində, tarixdə ilk dəfə olaraq hüquqi, parlamentli respublika bəxş etdi. Sonralar həmin respublika sovetlər ittifaqı tərkibində olsa da, qırmızı “don” geyindirilsə də, öz varlığını saxladı. İstər Azərbaycan SSR, istərsə də indiki müstəqil Azərbaycan Respublikası məhz o ilkin, möhtəşəm təməl üzərində qurulmuşdur. AXC-nin torpaqları zaman-zaman əlindən çıxsa da, sərhədləri kiçilsə də, ilk respublikamızın varlığı indiyə qədər yaşamaqdadır.

AXC-dən bizə nələr qalıb? Bu sualın cavabı çox geniş və eyni zamanda konkretdir: AXC-dən bizə SSRİ daxilində “müttəfiq”, SSRİ-dən sonra isə müstəqil, suveren, azad ölkə qalıb. Eyni zamanda milli dövlət atributları — üçrəngli dövlət bayrağı, dövlət gerbi və əzəmətli dövlət himnimiz qalıb. AXC-nin üçrəngli bayrağı bu gün BMT-nin qarşısında əzəmətlə dalğalanır, dövlət gerbimiz dünyanın aparıcı dövlətlərinin paytaxtlarındakı səfirliklərdə ölkəmizi təmsil edir, dövlət himnimiz bütün dünyada əzəmətlə səslənir.

Yeri gəlmişkən, bəzi məsələlərə açıqlıq gətirməyi də oxucularımız qarşısında öz borcumuz sayırıq. Bunlardan birincisi odur ki, Azərbaycan Xalq Cümhuriyyəti — Azərbaycan Demokratik Respublikasının baş siyasi ideoloqu türk dünyasının böyük oğlu professor Əli bəy Hüseynzadə üçrəngli dövlət bayrağımızın müəllifidir. Maraqlı məqamlardan biri budur ki, bayrağımızın üzərindəki səkkizguşəli ulduz indiyə qədər müxtəlif yozumlarla izah olunur. “Gündoğar”ın oxucularına ən dəqiq və mötəbər mənbəni göstərməyi özümüzə borc bilirik. AXC parlamentinin dövlət katibi Cəfər Cabbarlının üçrəngli bayrağımıza həsr olunmuş bir şeirində sirr olmayan “sirr” tamamilə açıqlanıb: səkkiz guşə od yurdu deməkdir, yəni ərəb əlifbası ilə “o” səsi sözün əvvəlində gələrsə, iki hərflə, “Əlif” və “vav” hərfləri ilə ifadə olunur, deməli “od yurdu” o zaman səkkiz hərfdən ibarət olmuşdur. Gerbi qəbul etmiş milli parlamentin dövlət katibi bunu açıqlayırsa, şərh edirsə, buna şübhə ilə yanaşmaq absurddur.

Nəhayət, son olaraq tarixi faktlara bir daha nəzər salırıq. Azərbaycan Xalq Cümhuriyyətinin — Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağını ilkin olaraq rəsmi şəkildə 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan ümummilli liderimiz Heydər Əliyev dalğalandırmış və böyük uzaqgörənliklə bunu Azərbaycan Respublikası Ali Sovetinə tövsiyə etmişdir. Digər dövlət atributlarımızın və dövlət qurumlarımızın yarandığı tarixi günlərin də bərpası bu dahi şəxsiyyətin sərəncamları ilə tariximizə əbədi olaraq həkk olunmuşdur.

2018-ci ilin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edilməsi də dahi Heydər Əliyev siyasətinin möhtəşəm davamı və dövlətçiliyimizin, müstəqilliyimizin əbədi, sarsılmaz olduğunu bir daha təsdiq və təsbit edən möhtəşəm mərhələdir.

Zabil PƏRVİZ

Çiyid səpini başlandı
UĞUR OLSUN, PAMBIQÇILAR

Yenə bahardır. Yenə yurdumuza yaz gəlib, torpaq oyanıb, hər tərəf başdan-başa yaşıllığa bürünür. Yazın gəlişi kənd adamlarının da qayğılarını artırıb. Fermerlər, torpaq mülkiyyətçiləri ümumi sevinc içində tarlalara çıxırlar. Kimi əkin əkir, kimi əkdiklərini becərir, kimi də başqa işləri görür.

Pambıqçıların qayğıları isə lap başdan aşır. Son illər bu sahənin inkişafına verilən dəstək onları elliklə hərəkətə gətirib. Ötən il 11111 hektar sahəyə çiyid səpən zəhmət adamları tarlalardan 9096 tondan çox "ağ qızıl" istehsal etsələr də, bu onların ürəyindən olmadı. Buna görə rayonumuzun fermerləri, torpaq mülkiyyətçiləri bu ilki mövsümə daha mütəşəkkil hazırlaşıblar, səpinqabağı nəzərdə tutulan aqrotexniki işləri, tədbirləri vaxtında, keyfiyyətlə həyata keçiriblər. Birgə səy nəticəsində sahələr vaxtında şumlanıb, şum altına kifayət qədər mineral və üzvi gübrələr verilib, torpaq yuyularaq zərərli duzlardan təmizlənib, əkində iştirak ediləcək müxtəlif mexanizmlər sazlanaraq qaydaya salınıb. Son vaxtlar rayonumuza çoxlu sayda təzə texnika vasitələrinin gətirilməsi çiyid səpinini daha optimal şəraitdə həyata keçirməyə imkan verir.

Artıq neçə gündür ki, çöllərimizdə, tarlalarımızda ayrı büsat var. Ümumi sevinc içində tarlalara çıxan kənd əməkçiləri torpağa çiyid səpir, cari ilin bol məhsulunun əsasını qoyurlar. Belə bir vaxtda — martın 26-da Prezident İlham Əliyevin sədrliyilə Bərdədəki Mədəniyyət Mərkəzində pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsinin keçirilməsi, müşavirədə dövlət başçısının söylədiyi parlaq nitq onlara yeni ruh vermişdir. Prezident İlham Əliyevin sözlərindən aydın oldu ki, ölkədə pambıq tədarükü 35 min tondan 207 min tona çatdırılsa da, bu son həddi deyil. Pambığın satın alınma qiymətinin 41 qəpikdən 60 qəpiyə çatdırılması, respublikamıza çoxlu sayda ən müasir texnika vasitələrinin, mineral gübrələrin gətirilməsi və digər tədbirlərin görülməsi məhsul istehsalını daha da yüksəltməyə imkan verəcəkdir. Dövlət başçısı yekun nitqində dedi: "Keçən il olduğu kimi bu il də bütün aidiyyəti qurumlar, mərkəzi, yerli icra orqanları, tədarükçü şirkətlər, fermerlər, zəhmətkeşlər bir komanda kimi fəaliyyət göstərmələdirlər. Mövsüm ərzində mövcud olan, yeni qarşıya çıxacaq problemlər dərhal öz həllini tapmalıdır və elə etməliyik ki, biz bu mövsümü maksimum səmərə ilə başa vuraq."

Prezident İlham Əliyevin daha yüksək məhsul uğrundakı çağırışına yeni qələbələri ilə cavab verməyə çalışan rayonumuzun "ağ qızıl" ustaları da səylərini durmadan artırırlar.

"GÜNDOĞAR

Rayonda sənayenin dinamik inkişafı davam edir

Regionların mövcud təbii və iqtisadi potensialından istifadə edilməklə ölkə iqtisadiyyatının neft sahəsindən asılılığının azaldılmasına və dayanıqlı inkişafının təmin edilməsinə istiqamətlənmiş dövlət siyasəti, regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş Dövlət Proqramları ilə nəzərdə tutulmuş tədbirlərin uğurlu icrası bölgələrdə olduğu kimi, Neftçala rayonunda da qeyri-neft sahələrinin, xüsusilə də emal sənayesinin davamlı inkişafına zəmin yaratmışdır.

Hazırda rayonda sənaye iqtisadiyyatın ən mühüm və inkişaf etməkdə olan istiqamətlərindən biridir. Mədənçıxarma, kimya, yeyinti, kərpic və digər sənaye sahələrini özündə birləşdirən bu vacib sahə rayonda son illərdə daha da inkişaf etməyə başlayıb. Xüsusilə qeyri-neft sektorunda yaradılan əlverişli investisiya mühiti və aparılan iqtisadi islahatlar rayonda sənayenin inkişafını daha da sürətləndirir.

Rayonun sənayesini əsas etibarı ilə neft və qazçıxarma, kimya sənayesi üzrə yod, kərpic istehsalı və qida məhsulları istehsalı təşkil edir. 2017-ci ildə fiziki şəxslər də daxil omaqla 31472,4 min manatlıq və ya 2016-cı ilə nisbətən faktiki qiymətlərlə 28,1 faiz çox sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Hesabat ilində sənayedə məhsul buraxılışının fiziki həcm indeksi əvvəlki ilə nisbətən 93,6 faiz təşkil etmişdir. Sənaye məhsulunun ümumi həcmində dövlət sektoru 20,2 faiz, qeyri-dövlət sektorunun xüsusi çəkisi isə 79,8 faiz olmuşdur. Sənaye istehsalının inkişafında qeyri-dövlət sektorunun fəaliyyəti olduqca mühüm əhəmiyyət kəsb edir.

2017-ci ildə sənaye məhsulu istehlakçılarına 31057,6 min manatlıq və ya 2016-cı illə müqayisədə 26,8 faiz çox məhsul göndərilmişdir ki, bunun da 78,7 faizi bilavasitə ixrac olunmaq üçün yüklənmişdir.

Sənaye məhsulunun 57,8 faizini mədənçıxarma, 22,0 faizini emal sənayesi, 17,9 faizini elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 2,3 faizini isə su təchizatı, tullantıların təmizlənməsi və emalı istehsalı təşkil etmişdir.

2017-ci ildə sənaye müəssisələrində (fiziki şəxslər də daxil olmaqla) çalışan işçilərin orta siyahı sayı 1363 nəfər olmuşdur ki, bu da 2016-cı illə müqayisədə 1,0 faiz çoxdur. Çalışan işçilərin 32,8 faizi dövlət, 67,2 faizi isə qeyri-dövlət sektorunda işləmişdir.

2017-ci ildə sənaye müəssisələrində çalışmış işçilərin orta aylıq nominal əmək haqqı 494,3 manat təşkil etmişdir. 2016-cı illə müqayisədə orta aylıq nominal əmək haqqının səviyyəsi 23,9 faiz artmışdır.

Dövlət müəssisələrində işləyənlərin orta aylıq nominal əmək haqqı 274,5 manat, qeyri-dövlət sektorunda işləyənlərin orta aylıq nominal əmək haqqı isə 608,9 manat təşkil etmişdir. 2016-cı ilə nisbətən dövlət müəssisələrində çalışan işçilərin orta aylıq nominal əmək haqqı 3,2 faiz, qeyri-dövlət sektorunda işləyənlərin əmək haqqı isə 30,8 faiz artmışdır.

Ş.MƏNƏFOV,
rayon statistika idarəsinin rəisi

Filialın əməkçiləri yeni mövsümdə yeni uğurlar qazanmaq əzmindədirlər

Vaxtı ilə rayonumuzun ən gur, qaynar müəsisələrindən biri də Neftçala Pambıqtəmizləmə Zavodu idi. Yüzlərlə insanın çalışdığı bu müəssisədə gecə-gündüz iş gedirdi. Adamlar fəal çalışdıqları, zəhmət çəkdikləri kimi yaxşı da dolanırdılar. Ötən əsrin 90-cı illərində baş verən ictimai-siyasi hadisələr, pambıqçılığa diqqətin azalması bu zavoddan da yan ötmədi. Müəssisənin fəaliyyətini dayandırması çoxlu sayda insanların işsiz qalmasına səbəb oldu.

Prezident İlham Əliyevin kənd təsərrüfatına, o cümlədən pambıqçılığın inkişafına göstərdiyi qayğı və diqqətdən, bununla bağlı həyata keçirilən ardıcıl tədbirlərdən sonra müəssisənin də xoş, növraqlı günləri başlandı. Ötən ilin payızında biz də bunun şahidi olduq. Pambıq qəbuluna hazırlaşan müəssisədə qızğın iş gedirdi. İlk məlumatı da elə MKT-İK MMC-nin Neftçala filialının rəhbəri Bahəddin Leysanovdan almışdıq. Qısa vaxtda Kür çayından müəssisəyə 5 kilometrlik yeni su xəttinin çəkilməsi, yolların başdan-başa asfaltlaşdırılması, laboratoriyaların, pambıq tayalarının yerləşəcəyi ərazilərin, meydançaların, ayrı-ayrı sexlərin, talvarların, elektrik təsərrüfatının, yanğınsöndürmə məntəqəsinin, inzibati binanın təmir olunaraq qaydaya salınması heç də asan deyildi. Üstəlik filialın Xol zonasındakı pambıq qəbulu məntəqəsi də tamamilə yenidən qurularaq ən müasir avadanlıqlarla təmin olunmuşdu. Bununla yanaşı ətrafın abadlaşdırılması, yaşıllaşdırılması, işçilər üçün xidmət otaqlarının yaradılması da unudulmamışdı, bu istiqamətdə də lazımi tədbirlər həyata keçirilmişdi. Bütün bunlar isə filial rəhbərliyinin yüksək təşkilatçılığı, nüfuzu nəticəsində mümkün olmuşdu, reallaşmışdı.

Əgər vaxtı ilə kolxoz və sovxozlarda istehsal olunan qiymətli məhsulu tədarük edən zavod onun emalını həyata keçirirdisə, indi emal olunacaq pambığı filial özü yetişdirir. Ötən il 1555,5 hektar sahədə pambıq əkən filial 900-dən çox mülkiyyətçi ilə müqavilə bağlamışdı. Birgə səy nəticəsində həmin sahələrdən 7816 tondan artıq "ağ qızıl" tədarük olundu. Həmin dövrdə filialın zəhmət adamları xüsusilə fəal çalışırdılar. Tarlalardan gələn on min tonlarla pambığı vaxtında qəbul etmək, tayalara vurmaq, yanğın təhlükəsizliyini təmin etmək o qədər də asan deyildi. Laboratoriyanın işçiləri əvvəlcə gətirilən xam pambıqdan nümunələr götürərək onun



nəmliyini, keyfiyyətini, təmizlik dərəcəsini müəyyənləşdirirdilər. Sonra elektron tərəzilərdə çəkilərək lazımi yerlərə boşaldılan məhsul Ramil Əliyev, Emin Hüseynov, Afət Tağıyev və digər işçilər tərəfindən yubanmadan tayalara vurulur, tayaların yanğınlardan qorunması üçün lazımi təhlükəsizlik tədbirləri həyata keçirilirdi.

Tədarük olunmuş məhsulun emalının da özünə məxsus xüsusiyyətləri, prosesləri var. Pambığın qurudulması, çeşidlənməsi və preslənməsi bu prosesin əsas tərkib hissələridir. Filialın baş mühasibi Elşad Tağıyevin məlumatlarından aydın oldu ki, tədarük edilən məhsulun hamısı emal olunaraq Bakı Toxuculuq Fabrikinə yola salınmışdır. Zəhmət adamları əl-ələ verərək pambığın emalını sürətlə həyata keçirmişlər. Ən başlıcası odur ki, istehsal edilən məhsulun keyfiyyətinə, müqavilə öhdəliklərinə ciddi əməl olunması sifarişçiləri razı salır. Emal edilən məhsulun 90 faizdən çoxunun 1-ci növ kimi qəbul olunması, mahlıc çıxımının 41,5 faizə çatdırılması da bunu əyani şəkildə göstərir. Qeyd edək ki, bu, şirkət üzrə ən yüksək göstəricidir. Layiqli uğurların əldə olunmasında baş mühəndis Mirbəşir Ağayevin zəhməti böyükdür.

İlk ilin uğurları, nəticələri sevindirici olsa da kollektiv bundan arxayınlaşmır. Əksinə, yeni mövsümə yeni qüvvə ilə hazırlaşır. Elşad Tağıyev bildirdi ki, bu il filial 565 fermer və torpaq mülkiyyətçisi ilə müqavilə bağlamışdır. 2315 hektar sahədə pambıq əkiləcəkdir. Sahələrdə aqrotexniki qaydada şum ediləsi, yuma və arat işlərinin keyfiyyətlə həyata keçirilməsi çiyid səpininə də vaxtında başlamağa imkan vermişdir. Bunun üçün müəssisənin kifayət qədər texnika bazası da vardır. 7 şum traktoru, 10 mala, 19 toxumsəpən aqreqat və digər mexanizmlər tam hazır vəziyyətdədir. Filialın müqavilə bağladığı fermerləri, torpaq mülkiyyətçilərini kifayət qədər toxumla, texnika vasitələrilə, mineral gübrələrlə təmin etməsi məhsuldarlığın yüksəlməsinə öz müsbət təsirini göstərəcəkdir. Yeri gəlmişkən deyək ki, bu ildən etibarən becərmə tədbirləri ilə bağlı müqaviləçilərə verilən vəsait kartla ödəniləcəkdir.

Kollektiv təkcə işgüzarlığı, zəhmətsevərliyi ilə deyil, eyni zamanda dövlətə, dövlətçiliyə sədaqəti ilə diqqəti çəkir. Filialın rəhbəri Bahəddin Leysanov bu işdə nəinki kollektivdə, rayonda fərqlənən, nümunə olan insanlardandır. Prezident, parlament seçkilərində həmişə dövlətin yanında olan Bahəddin müəllim ulu öndər Heydər Əliyevi, bu müdrik insanın layiqli davamçısı Prezident İlham Əliyevi qətiyyətlə dəstəkləyib, onlara səs verib. Özü bu barədə belə deyir:

— Ötən əsrin 90-cı illərini unutmağa, yaddan çıxarmağa haqqımız yoxdur. Heydər Əliyevin müdrikliyi, qətiyyəti, dəmir iradəsi olmasaydı Azərbaycanı parçalanmaqdan, məhv olmaqdan xilas etmək yəqin ki, mümkün olmayacaqdı. Ulu öndər dövlətimizi, dövlətçiliyimizi təkcə xilas etmədi, eyni zamanda müstəqil Azərbaycanı qurub yaratdı, onu bizə əmanət etdi. Buna görə biz bu dahi insana əbədi borcluyuq, minnətdarıq. Son 15 ili isə möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında yaşamışıq, işləmişik. Ölkəmizin paytaxtının, onun regionlarının necə böyük sürətlə dəyişərək inkişaf etməsi, müasirləşməsi gözlərimizin önündə baş verib. Sabit həyatımız, təhlükəsizliyimiz etibarlı şəkildə qorunur. Adamlar qurur, yaradır, firavan dolanırlar. Bunları görmək üçün uzağa getmək lazım deyil, elə doğma rayonumuza nəzər yetirmək kifayətdir. Qısa vaxtda dövlətimizin başçısı cənab İlham Əliyev Neftçalaya iki dəfə səfər edərək həyati əhəmiyyətli bir sıra möhtəşəm obyektlərin açılışında iştirak edib, adamlarla unudulmaz səmimi görüşlər keçirib. Çox sevinirəm ki, mən də bu fenomen şəxsiyyətlərlə — ulu öndər Heydər Əliyevlə, möhtərəm Prezidentimiz İlham Əliyevlə yaxın təmasda, ünsiyyətdə olmuşam. Həmin anlar ömrümün ən unudulmaz, yaddaqalan anlarıdır. Aprelin 11-də bütün netçalalılar kimi mən də, kollektivimizin hər bir üzvü də seçkiyə böyük inamla getdik, inkişafımızın davamına səs verdik. Əminəm ki, idarəetmədə zəngin təcrübə qazanan, beynəlxalq aləmdə sayılıb seçilən, böyük nüfuz sahibi olan möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında hələ çox irəli gedəcəyik, yeni-yeni uğurlara, nailiyyətlərə imza atacağıq.

Habil ƏSƏDOV

ZƏHMƏTƏ BAĞLI ÖMÜR

ÖÇERK

...1959-cu ilin sərt qışının qarlı, şaxtalı bir günündə, fevral ayının 22-də Məzahim və Şərqiyyə Tağıyevlərin ailəsində ilk övlad, ilk oğlan uşağı dəldi dünyaya. Adını Əlqulu qoydular. Ata-ananın sevincinin həddi-hüdudu yox idi. Baba da, nənə də — hamı, bütün qohum-əqrəba sevinirdi. Sevinirdilər ki, nəslin daha bir davamçısı dünyaya gəlib...

Məzahim onda Aşağı Qaramanlı kəndindəki kolxozda mexanizator işləyirdi. Özü də qabaqcıl idi. Kənd təsərrüfatı maşın və mexanizmlərinin sayca o qədər də çox olmadığı həmin dövrdə mexanizatorluq kənddə ən hörmətli, ən nüfuzlu peşələrdən biri sayılırdı. Şərqiyyə evdə həyat yoldaşının xidmətində sərvaxt dayanır, ağır işdən sonra onun əziyyət çəkməsinə imkan vermirdi. Gənc ailə mehriban yaşıyır, heç nədən korluq çəkmirdi. Onların yeganə qayğısı balaca Əlqulunun tez böyüyüb boya-başa çatması, tez dərsə, məktəbə getməsi idi...

Quş qanadlı illər sürətlə uçub keçdilər. Başqa yaşıdları kimi Əlqulu da tez boy atıb böyüdü, tez məktəbə getdi. Ancaq əvvəldən onun yazıb oxumaqdan daha çox əməyə, zəhmətə meyli vardı, atasının peşəsinə çox maraq göstərirdi. Atası da peşəsini ona həvəslə öyrədirdi, övladını kiçik yaşlarından əməyə, zəhmətə alışdırırdı. Arada Şərqiyyə həyat yoldaşını danlayıb deyirdi:

— Ay Məzahim, qoy uşaq dərsini oxusun, elm öyrənsin, onun başını başqa işlərə çox qatma.

Məzahim də gülümsünərək cavab verirdi:

— Elə bu da bir dərs, bir məktəb, bir elmdi. Özü də vacib dərs, vacib məktəb, vacib elm. Mexanizatorluq gərəkli peşədi, kənddə bu peşəsiz keçinmək olmaz. Qoy uşaq indidən bu peşəni öyrənib özünə bir gün ağlasın, əməyə, zəhmətə alışsın. İnsan hara getsə, hansı işin, peşənin qulpundan yapışsa onu həyatda yalnız əməyi, zəhməti ucaldır, o özünə yalnız işi, peşəsi, zəhməti ilə yol açır, hörmət qazanır. Böyük Nizami boş yerə deməyib ki, çalış öz xalqının işinə yara, dünya əməlinlə geysin zərxara...

Məzahim yanılmamışdı. İlk övladı Əlqulu onun peşəsinə səylə yiyələndi, həyatda özünə işi, peşəsi, çalışqanlığı ilə yol açdı, hörmət qazandı. 80-ci illərin əvvəllərində hərbi xidmətdən qayıtdıqdan sonra o da kəndlərindəki təsərrüfatda mexanizator kimi işə başladı, atası kimi təsərrüfatın qabaqcıl mexanizatorlarından biri oldu. Əlqulu təsərrüfatın bütün sahələrində eyni səylə, eyni həvəslə çalışırdı, heç vaxt heç bir işdən boyun qaçırmırdı, yorulmaq nə olduğunu bilmirdi. Gah yer şumlayır, gah taxıl əkib becərir, gah pambıq toplayır, gah da müxtəlif işlərdə mexanizator yoldaşlarına köməklik göstərirdi. Bu xasiyyətinə görə traktorçu yoldaşları da, təsərrüfat başçıları da onun xətrini çox istəyirdilər, həmişə hörmətini saxlayırdılar. Bir gün kolxozun baş aqronomu ona yaxınlaşıb mehribanlıqla:

— Halal olsun, — dedi, — sən doğrudan da atanın adına layiq oğulsan. Neçə vaxtdır fikir verirəm, heç vaxt heç bir işdən boyun qaçırmırsan, bütün işləri də yaxşı yerinə yetirirsən. Çalış həmişə belə qabaqcıl ol, bu sənə hər yerdə hörmət qazandırar, başucalığı gətirər...

Əlqulu gülümsünərək:

— İşimə qiymət verdiyinizə görə sağ olun, — dedi. — Mən təriflənmək üçün belə etmirəm, bu mənim xasiyyətimdi. Bekar qalanda darıxıram...

İllər sürətlə keçib getdi. Bu illərlə birlikdə həyatımız, zaman, dövran da dəyişdi. 90-cı illərin ortalarından hər yerdə olduğu kimi Aşağı Qaramanlıdakı həmişə təriflənən, fərqlənən Nuruş Əliyev adına kolxoz da dağılmağa başladı, onun əkin sahələri təsərrüfatın üzvləri arasında bərabər səviyyədə bölünərək paylandı, onların daimi istifadəsinə verildi. Həmin bölgü zamanı Əlqulugilin ailəsinə də müəyyən pay düşdü. 2001-ci ildə isə Əlqulu özünün fərdi təsərrüfatını yaratdı.

Müstəqil olmaq, sərbəst fəaliyyət göstərmək əlbəttə ki, rahatdı, sərfəlidi. Amma bu, müəyyən çətinliklər də yaradır, problemlər də ortaya çıxarır. Xüsusilə də texnika cəhətdən, əkin sahələrinin suvarılması məsələsində. Əlqulunun texnika sarıdan korluğu yox idi. Bütün işlərini traktoru ilə özü təkbaşına görürdü, yeri gələndə başqalarına da kömək göstərirdi. Sahələrinin hamısını özü şumlayıb malalayır, özü əkib becərirdi. Traktorunda bir nasazlıq yarananda da onu özü sazlayıb düzəldir, çilingərliyini, mexanikliyini də özü edirdi. Su məsələsində də həmişə qabağa düşür, başqa fermerlərə də yol açır, istiqamət verirdi. Buna görə



çox keçmədən onu Astanlı Su Birliyinin sədri seçdilər. İşi daha da artdı, ağırlaşdı. İndi o həm özünün, həm də qonşu təsərrüfatların əkin sahələrinin qayğısına qalmalı, onların hamısı üçün eyni şərait yaratmalı idi. Səyi, bacarığı, çalışqanlığı ilə Əlqulu bütün bu işlərin öhdəsindən layiqincə gəldi, birliyin əhatə etdiyi torpaq sahiblərinin dərin hörmətini, rəğbətini qazandı...

Əlqulunun 36 hektar torpaq sahəsi var. O əvvəllər bu torpaqların hamısında yalnız arpa, buğda və yonca əkirdi. Hazırda onun işi bir az da artıb, daha maraqlı və məsuliyyətli olub...

Möhtərəm Prezidentimiz İlham Əliyevin kənd təsərrüfatına göstərdiyi diqqət və qayğı sayəsində 2016-cı ildən respublikamızda pambıqçılığın inkişafına yeni təkan verilib, hər yerdə olduğu kimi rayonumuzda da yeni bir abı-hava yaranıb. Pambıqçılığın inkişaf etdirilməsinə dair çağırışa ilk cavab verənlərdən, bu məsuliyyətli işə ilk qoşulanlardan biri də Əlqulu Tağıyev olub. Yola saldığımız 2017-ci ildə o, 18 hektar sahədə pambıq əkmişdi. Bu sahələri qayğı ilə becərdi, bütün aqrotexniki qaydalara düzgün əməl etdi, məhsul yığımını da sürətlə apardı. Çəkilən zəhmət hədər getmədi, səyi, çalışqanlığı sayəsində uğur əldə etdi. O, becərdiyi pambıq sahəsinin hər hektarından 20 sentner məhsul götürdü. Bu, əlbəttə ki, tək Əlqulunun uğuru deyildi, birgə əməyin bəhrəsi idi. Əlqulu fermer təsərrüfatında çalışan üzvlərin işindən, fəaliyyətindən həmişə razılıqla danışır, həvəslə söhbət açır. Xüsusilə də Kürsüm Tağıyevanın, Qızqayıt Tağıyevanın, İlahə Hüseynovanın işindən, fəaliyyətindən. Bildirir ki, təsərrüfat üzvlərinin birgə işi, fədakar əməyi olmasaydı bu uğuru qazana, əldə edə bilməzdik. Onların hər biri becərmədə, məhsul toplanışında gecə-gündüz yorulmaq nə olduğunu bilmədən çalışıblar. İlahə Hüseynova mövsüm ərzində əllə 4 ton, Kürsüm 3,5 ton, Qızqayıt isə 3 tondan çox "ağ qızıl" toplayıb. Bu heç də asan iş deyil, bunun üçün onlara sağ ol düşür...

Əlqulunun fermer təsərrüfatının üzvləri də öz başçıları haqqında ürəklə danışırlar, ondan razılıq edirlər. Bu təsərrüfatda çalışanların əksəriyyəti də Əlqulunun yaxın adamları, doğmaları, ailə üzvləridir. Bacısı Kürsüm qardaşı haqqında belə deyir:

— Bizim hamımıza kiçik yaşlarımızdan o qayğı göstərib, hamımızı o tərbiyə edib, böyüdüb, əməyə, zəhmətə o alışdırb. Valideynlərimiz dünyalarını dəyişdikdən sonra ailəmizin böyüyü, ağsaqqalı Əlqulu oldu. O bizi həmişə diqqətdə saxladı, hər birimizə məsləhət verdi, yol göstərdi. İndi qardaşlarım Səmədin, Eldənizin, Əlinin hərəsinin ayrıca əkin sahəsi var, onlar da Əlqulu kimi fermerdirlər. Bir qardaşım Elşənsə Bakıda yaşayır. Tez-tez kəndə gəlir, heç vaxt bizi yaddan çıxarmır. Qardaşlarımın hamısına Əlqulu yol göstərir, istiqamət verir. Bacılarım Xədicə, Sevda, Səadət, Asudə də Əlquluya hörmətlə yanaşırlar, heç vaxt onun sözündən çıxmırlar. O hamımızdan böyük, ağıllı, zəhmətsevərdir. Əlqulunun sözünə baxanda həmişə xeyir tapırıq. Əliqulu bizim arxamız, dayağımız, yolgöstərənimizdir...

Əlqulu həm də mehriban, səmimi bir ailə başçısıdır. Həyat yoldaşı Firuzə xanımla birlikdə 2 övlad böyüdərək boya-başa çatdırıb. Oğlu Rəşad onun fermer təsərrüfatında çalışır, hər işdə atasına arxa-dayaqdır. Rəşadın 2 oğlu var — Tuncay və Yağmur. Əlqulunun qızı Yeganəninsə bir oğlu, bir qızı var — Sadiq və Tunay. Əlqulu mehriban, nəvazişkar bir baba kimi nəvələrinin hamısına eyni qayğı göstərir, onların da böyüyəndə zəhmətkeş, çalışqan olmalarını arzulayır...

Əlqulu Tağıyev nikbin, sabaha inamla, ümidlə baxan insandır. O, cari ildə də əkin sahələrində pambıq yetişdirəcək. Buna isə ciddi hazırlıq görüb. Şum işlərini, qış aratını, torpağın yuyulmasını ardıcıllıqla yerinə yetirib. Əlqulu bütün bu işlər barədə söhbət açaraq deyir:

— Torpaq da canlı insan kimidir. Ona gərək həmişə ciddi diqqət yetirəsən, dərin qayğı göstərəsən. Yoxsa istədiyini ondan ala bilməzsən. Sahələrdən bol məhsul əldə etməyin digər bir şərti keyfiyyətli toxumdur. Bütün bu şərtlərə biz də diqqət yetiririk. İnanıram ki, 2018 daha uğurlu il olacaq, pambıqçılıqda yüksək nəticələr əldə edəcəyik, hər hektardan 25-30 sentner məhsul götürəcəyik. Bunun üçün isə daha səylə çalışmaq lazım gələcək.

Başımı qaldırıb onun üzünə baxdım. Yayın istisinin, qışın sazağının yandırıb qaraltdığı çöhrəsində bir inam, məğrurluq duyulurdu. Yaşının müdriklik çağına qədəm qoyan bu zəhmət adamına uğur dilədim. Qəlbimdən qeyri-ixtiyarı bu sətirlər keçdi:

Adlayıb keçdikcə sən bu çölləri,
Zəhmətin, hünərin ilk səhər oldu.
Sənə alqış deyir Muğan elləri,
Ən uca amalın zəfərlər oldu...

İmamverdi ZEYNALOV

İŞ HƏMİŞƏ VAR – TƏKİ İÇDƏN GƏLƏN İSTƏK, BACARIQ, QABİLİYYƏT, İSTEDAD OLSUN

Mərhum həmyerlimiz İman Şirəliyevin haqqında düşünərkən

"ATV" kanalında "İş həmişə var" adında maraqlı bir veriliş gedir. Aparıcısı da bizim həmyerlimiz Fəriddir. Hər dəfə o verilişə baxanda Fəridin öz bacarığına, qabiliyyətinə də təəccüb edirəm. O hara getsə, hansı sahədən veriliş hazırlasa oradakılara qoşulub özü də həmin işlərdə iştirak edir — gah çörəkçilərə qarışıb çörək bişirir, gah heyvandarlarla tövlə təmizləyir, heyvanlara yem verir, xidmət edir, gah tikinti işi görür, divar suvayır, gah mürəkkəb bir texnologiyanı yerinə yetirir. Fərid Gözəlovun mənsub olduğu nəslin özü istedadlıdır. Atasının əmisi oğlu şair Müzəffər Məzahim vaxtilə bizimlə bir kollektivdə işləyirdi. Onun da əlindən hər iş gəlirdi, yaşadığı evi də özü tikmişdi...

Məqsədim Fəridi, Müzəffəri tərifləmək, onların haqqında yazmaq deyil. Çox vaxt əllərindən iş gəlməyən bacarıqsız, qabiliyyətsiz adamlar gileylənib deyirlər ki, iş yoxdur, iş tapa bilmirik. Fəridin apardığı veriliş isə göstərir ki, bacarığı, qabiliyyəti, səriştəsi olan adam üçün iş həmişə, hər yerdə var... Xüsusilə dövlətin, dövlət başçısının bu sahəyə diqqətinin, qayğısının gündən-günə artdığı indiki vaxtda. Təki içdən gələn istək, təşəbbüskarlıq, möhkəm iradə olsun. Onda iş də tapılar, iş yeri də.

Nədənsə yadıma dünyasını vaxtsız dəyişmiş, xətri hamımız üçün əziz olan xeyriyyəçi yerlimiz, uşaq şahmat məktəbinin keçmiş direktoru İman Şirəliyev düşür. O İman Şirəliyev ki, ayaqlarının ikisi də işləmirdi, əlil arabasına möhtac idi, yarımadam hesab olunurdu. Amma yüz sağlam, əlli-ayaqlı adamın işini görürdü, yüz sağlam, əlli-ayaqlı adamın işinə yarayırdı, onlara arxa-dayaq dururdu. Doğrudan da güc, qüvvə insanın qolunda, bədənində, fiziki sağlamldığında deyil, ruhunda, qəlbində, iradəsindədir. İman müəllimin də məhz ruhu, qəlbi, iradəsi güclü, sağlam idi. Elə bu gücün, iradənin hesabına da çox sağlam adamın görə bilmədiyi, xəyalına da gətirmədiyi böyük işlər görmüş, böyük uğurlar əldə etmişdi...

Biz İman müəllimi onun qəzaya uğrayaraq sağlamlığını itirdiyi ilk vaxtlardan tanıyırdıq. Tez-tez yanına gedir, ona təsəlli verir, saatlarla oturub onunla söhbət edirdik. İman müəllim hərtərəfli biliyə, geniş dünyagörüşə malik bir insan olmaqla yanaşı həm də maraqlı həmsöhbət idi. Həyatın hər bir üzündən, hər bir məsələdən danışmağı, mühakimə yürütməyi, həm də doğru, düzgün danışmağı, mühakimə yürütməyi bacarırdı. Qəzaya uğrayıb sağlamlığını



itirməsinə baxmayaraq qətiyyən ruhdan düşməmişdi, olduqca fəal, nikbin görünürdü. Bu nikbinlik, həyatsevərlik özü də onun iradəsindən güc alır, irəli gəlirdi...

İman müəllim heç vaxt bekar dayanmağı sevmir, işsiz qalmırdı. Əvvəllər daha çox mütaliə edir, müxtəlif intellektual əyləncələrlə məşğul olurdu. O vaxt tez-tez qəzetdə onun maraqlı krossvordlarını, rebuslarını, şahmata dair məsələlərini dərc edirdik. İman müəllimin elə o vaxtdan şahmata böyük marağı vardı, evinin içində, çarpayısındaca qardaşı uşaqlarına, yaxınlarına, doğmalarına şahmatın sirlərini öyrədirdi. Yatdığı otağın içi, künc-bucağı həmişə müxtəlif köhnə məişət əşyaları ilə — elektrik peçləri, elektrik ütüləri ilə, tikiş maşınları ilə, radioqəbuledicilərlə, tranzistorlarla, sərinkeşlərlə dolu olardı. O, çölə atılmalı olan bu cihaz və qurğuları təmir edərək saz hala salar, onlara yeni həyat verər, sahiblərinə hədiyyə edərdi...

Sonralar İman müəllim coşqun həyat eşqi, dəmir iradəsi hesabına taleyinin onu məhkum etdiyi ev, çarpayı dustaqlığından xilas oldu, dar qəfəsi tərk edərək cəmiyyət arasına çıxdı, çox böyük uğurlara imza atdı. Əvvəl şəhərin mərkəzində özünə yaraşıqlı bir ofis tikdirdi, burada gənclərin intellektual resurs mərkəzini ərsəyə gətirdi, komputer məktəbi açdı. Yeri gəlmişkən deyək ki, hazırda rayonumuzun əksər idarə və müəssisələrində çalışan kompüter xidmətçilərinin çoxu vaxtilə məhz həmin məktəbdə təhsil alaraq kompüterin sirlərinə yiyələnənlərdir. Onlar indi də İman müəllimi dərin minnətdarlıq hissi ilə xatırlayır, onun işıqlı ruhuna rəhmət oxuyurlar...

Daha sonra İman müəllimi rayon şahmat məktəbinin direktoru vəzifəsinə təyin etdilər. O vaxt buna dodaq büzənlər də az olmadı. Deyirdilər brinci qrup əlil olan şəxs şahmat məktəbi kimi ağır bir sahəyə rəhbərlik edə bilməz, o bu məktəbi necə idarə edəcək? Bu o adamlar idi ki, sağlam sayılsalar da əllərindən iş gəlmirdi. İman müəllim az bir vaxt ərzində bu tökülüb dağılmış binanı əsaslı şəkildə təmir etdirdi, burada ciddi nizam-intizam yaratdı, dərsə davamiyyəti möhkəmləndirdi. Tezliklə rayonumuzun uşaq şahmat məktəbi respublikanın şahmat məktəbləri arasında sayılıb-seçilməyə başladı, burada respublika səviyyəli yarışlar təşkil edildi. Elə bu uğurlara görə də möhtərəm Prezidentimiz İlham Əliyev rayonumuza səfəri zamanı bu məktəbə də baş çəkdi, İman Şirəliyevlə görüşüb söhbət etdi. Bu çox böyük bir uğur, çox yaddaqalan bir hadisə idi. Həmin uğur İman müəllimin yenilməz iradəsi hesabına əldə edilmişdi... O gün bizim üçün də çox unudulmaz bir gün idi.

Bəli, iş hər yerdə, hər vəziyyətdə, hər bir şəraitdə var. Təki qəlbimizdə təpər, böyük istək, arzu, həvəs olsun. Bir də unudulmaz həmyerlimiz İman müəllimin böyük istedadı, dəmir iradəsi, sönməz həyat eşqi...

Habil ƏSƏDOV

Bu, əsl böyüklükdür

Azərbaycan-Rusiya əlaqələrinin kökləri çox uzaqlara gedib çıxır. Uzun illərdən bəri bu ölkədə yaşayan həmvətənlərimiz təkcə maddi və mənəvi tələbatlarını ödəməklə kifayətlənməyiblər, eyni zamanda ictimai tədbirlərdə də fəal iştirak ediblər, öz qurumlarını, təşkilatlarını yaradıblar. İki xalq arasında əlaqələrin möhkəmləndirilməsi üçün səylərini əsirgəməyiblər.

Tale elə gətirib ki, biz də ailəliklə Rusiyada yaşamışıq. Özü də Kemerovo şəhərində. Atam buradakı kömür mədənində çalışırdı. Özünə görə hörmət qazanmışdı. Rus yoldaşları, yerli sakinlər onun xatirini çox istəyirdilər. Qısa müddətdə çoxlu dostlar qazanmışdı. Mən də ilk təhsilimə bu şəhərdə başlamışam. Mənim də dostlarım, yoldaşların az deyildi. Sonralar doğma yerlərə qayıtsaq da əlaqələrimiz qırılmadı. Uzun müddət məktublaşdıq, bir-birimizdən hal-əhval tutduq. Bu gün də orada keçirdiyim xoş günləri, dostlarımı, tanışlarımı böyük hörmətlə xatırlayıram.

Bu günlərdə Rusiya Federasiyasının Kemerovo şəhərindəki ticarət mərkəzində baş vermiş faciə məni də sarsıtdı. Təhlükəsizlik tədbirlərinə lazımi səviyyədə əməl olunmaması üzündən baş verən dəhşətli yanğın çoxlu sayda insanın

həyatına son qoydu. Ən dəhşətlisi o idi ki, yanaraq dünyalarını dəyişənlərin çoxu kiçik yaşlı uşaqlar idi. Təkcə insan kimi yox, bir həkim kimi də onların halına acıdım, kövrəldim, yadıma kemerovolu uşaqlarla keçirdiyim xoş, unudulmaz günlər düşdü.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Rusiyanın ölkəmizdəki səfirliyinə gedərək başsağlığı verdi, baş vermiş faciə ilə əlaqədar matəm kitabına ürək sözlərini yazdı. Sonra Heydər Əliyev Fondunun təşəbbüsü ilə faciədə zərər çəkənlərə kömək üçün ölkəmizdən Kemerovo şəhərinə yardım göndərildi. Mehriban Əliyevanın mərhəmətli, şəfqətli, xeyirxah xanım olduğunun dəfələrlə şahidi olmuşduq. Bu hadisədən sonra bu şəfqətli xanımın necə böyük ürək sahibi olduğunu bir daha əyani şəkildə gördük. Bu həm də dar gündə qonşusunun kədərinə, faciəsinə laqeyd qala bilməyən xalqımızın, millətimizin böyüklüyüdür. Bu böyüklükdən qürur duyuram.

Qurbanxan PİRƏLİYEV,
həkim, yazıçı-publisist

Bahar nə xoş gəlir...

Rayonumuzda yaranan gözəl ənənələrdən biri də iməciliklərin keçirilməsidir. Yazın ilıq nəfəsi hiss olunan kimi idarə və müəssisələrin kollektivləri, ayrı-ayrı insanlar bir qayda olaraq bahar iməciliklərinə qoşulurlar. Bu iməciliklər təkcə onların iş yerləri, idarələrin həyət-bacaları ilə məhdudlaşmır. İnsanlar küçələrə, parklara, xiyabanlara, istirahət və gəzinti meydanlarına çıxırlar. Kimi yer belləyir, kimi təzə ağac və gül kolları əkir, kimi səkilərin və yolların kənarlarındakı ağacların gövdələrini əhəngləyir. Bir sözlə, hamı hər tərəfdə bahar səliqəsi, yaz əhvali-ruhiyyəsi yaratmağa çalışır. Axı Vətən, yurd, el-oba təkcə şəxsi həyətlərdən, bağlardan, bağçalardan ibarət deyil, Vətən həm də bizim küçə qapımızdan başlayır. Əgər hər birimiz hər il bir və ya bir neçə ağac əksək və onları qorusaq, yayın qızmar istilərindən çıxara bilsək rayonumuz təbii sağlamlıq diyarına çevrilər, körpələrimiz daha təmiz hava ilə nəfəs alar, özümüz də yaşıllığa, kölgəliklərə qərq olmuş məkanda yaşamış olarıq.

Hər il olduğu kimi bu il də rayonumuzda bahar iməcilikləri vaxtında başladı. Bu dünyada ən gözəl mübarizə gözəllik uğurunda mübarizədir. Gözəl yaşamaq da gözəllik uğrunda mübarizədən başlayır. Bunu nəzərə alan rayon sakinləri şəhərin baş

küçəsində — Heydər Əliyev prospektində geniş yaşıllıq zolaqları, xiyabanlar salmışlar. Bu xiyabanlar Bayraq Meydanı və Bulvar kompleksinə qədər uzanıb gedir. Hər dəfə bu gözəl xiyabanda və digər yerlərdə iməcilik edib abadlıq işləri aparan insanları gördükdə hamı məmnun qalır, onlara ürəkdən təşəkkür edir.

Heydər Əliyev Mərəkəzinin qarşısındakı park, fəvvarələr parkı, Dədə Qorqud parkı, yaşıllıqlar içində olan istirahət və gəzinti seyrəngahları da son illərdə yaradılmış istirahət guşələrindəndir. Bu parklar da bahar iməciliklərindən kənarda qalmır, uşaq əyləncə guşələrində də abadlıq işləri aparılır. Əlbəttə, abadlıq, təmizlik, səliqə-sahman yaxşı şeydir, amma onu qorumaq, qədrini bilmək əsas şərtdir. Əkiləni, göyərəni qorumaq isə təkcə gözətçilərin işi deyil. Hər bir adamın, insanın ürəyində, içində özününkü deyilən bir gözətçi də olmalıdır. İməcilik gözəl işdir, xeyirxah əməldir, təmənnasız yaxşılıqdır, özümüzün özümüzə diqqətimizdir. Bahar iməcilikləri müqəddəs bir ənənədir, hər dəfə bahar gələndə təkrarlanır. Amma içimizdəki vicdan iməciliyi daim olmalıdır, onun fəsli, mövsümü olmamalıdır. Gəlin yaratdıqlarımızı həm də sevək, qoruyaq, özü də bütün ömrümüz boyu qoruyaq.

F.AĞAYEV

45 İL EYNİ İŞDƏ, EYNİ VƏZİFƏDƏ ÇALIŞAN İNSAN

Sizə rayonumuzun veteran təhsil işçilərindən biri haqqında söhbət açmaq istəyirəm. Hamıya doğma və yaxın olan bir təhsil işçisinin haqqında. Onun bir fərqləndirici cəhəti də uzun illər ərzində eyni bir iş yerində, eyni bir vəzifədə çalışmasıdır. Şəxsən mən ali təhsilimi başa vurub təyinatla rayonumuza gəldiyim 1977-ci ildə rayon təhsil şöbəsində birinci dəfə gördüyüm şəxs o olub və burada çalışdığım illər ərzində də onu həmişə eyni bir işdə, eyni bir vəzifədə görmüşəm. Amma bilmirdim ki, o elə əvvəldən, rayonumuz Salyandan ayrılandan, rayon təhsil şöbəsi yaranandan bu işdə, bu vəzifədə çalışıb, ikinci bir iş yeri tanımayıb...

Bir vaxtlar haradasa oxuyanda ki, yapon işçisinin əmək kitabçasında cəmi iki — hansısa bir işə, vəzifəyə təyin olunması, bir də oradan təqaüdə çıxması barədə qeydiyyat olur, buna inanmamışdım, nağıl kimi baxmışdım. Demə belə şey olurmuş, rayonumuzda da bunun nümunəsi var imiş. Yapon işçisinin əmək kitabçasında ona görə cəmi iki qeydiyyat olur ki, yapon işçisi işində, vəzifəsində həmişə nümunəvi, intizamlı çalışır, heç vaxt heç bir nöqsana, qüsura, səhlənkarlığa yol vermir. İşindən çıxarılan adamı da heç yerdə işə götürmürlər ki, yaxşı işçi olsaydın səni işindən çıxarmazdılar. Haqqında danışmaq istədiyim təhsil işçisi də məhz işində, vəzifəsində bacarıqlı, intizamlı olduğuna, heç vaxt heç bir nöqsana, qüsura, səhlənkarlığa yol vermədiyinə, bir də səmimiliyinə, mehribanlığına görə eyni bir işi, vəzifəni daşıyıb, heç kəs onu tutduğu işdən, vəzifədən çıxarmaq haqqında fikirləşməyib. Rayon təhsil şöbəsinin referenti — katibə-makinaçısı Adilə Əsgərovanı deyirəm.

Ondan bu işə, vəzifəyə nə vaxt, necə təyin olunması barədə soruşdum. Gözləri yol çəkdi. Dedi mənim bu işə düzəlməyim rayonumuzun təşkili ilə eyni vaxta təsadüf edir. Onda Mirqurbanlı kənd tam orta məktəbini təzə bitirmişdim. Ali məktəbə qəbul oluna bilmədiyimə görə özümə münasib iş axtarırdım. Neftçala rayonu da Salyandan ayrılaraq təzə təşkil olunurdu, bu rayon üçün kadrları təzə seçib bir yerə yığırdılar. Orta məktəbdə bizə rəsm və əmək təlimi fənlərindən dərs demiş Fikrət İmanov xəbər gətirdi ki, rayon partiya komitəsində işçi toplayırlar, gedib onlara ərizə ilə müraciət edək. Biz də bir dəstə rəfiqələrimizlə birlikdə ora yollandıq, rayon partiya komitəsinin birinci katibi Təvəkkül Xankişiyevin adına ərizə yazdıq, ondan bizi münasib bir işlə təmin etməsini xahiş etdik. Çox keçmədən məni rayon partiya komitəsinə çağırdılar. Partiya komitəsinin müvəqqəti iqamətgahı onda internat məktəbinin hazırkı yataqxanasında yerləşirdi. Orada bildirdilər ki, yazdığımız ərizələrə şəxsən birinci katibin özü baxıb, mənim ərizəmin məzmunu, xəttimin səliqə-sahmanı, aydınlığı onun diqqətini ayrıca cəlb edib, o məni təzə təşkil olunan rayon xalq maarifi şöbəsində dəftərxana işçisi, katibə vəzifəsinə məsləhət görüb. Onda hər bir iş yeri üçün çalışanlar çox idi. Bu yerdə də gözü olanlar az deyildi. Ancaq Təvəkkül Xankişiyev bunu eşidib rayon xalq maarifi şöbəsinin təzə təyin olunan müdiri Hüseynağa Xəlilova məni ayrıca tapşırmışdı. Buna görə Təvəkkül müəllimin işıqlı xatirəsini həmişə dərin minnətdarlıq hissi ilə yad edirəm.

Adilə xanım hadisələrin sonrakı gedişini də maraqla danışdı. Dedi Hüseynağa müəllim məni yanına çağırdı. İşin mahiyyətini, məsuliyyətini hərtərəfli izah elədi, bu işdə xüsusi diqqət tələb olunduğunu söylədi. Xatırlatdı ki, katibəlik sənə adi görünməsin. Hər idarənin, müəssisənin canı sənədlərdə, sənədlərin də taleyi katibənin əlindədir. Katibənin adi bir diqqətsizliyi mühüm bir sənədin itməsinə, bu da ağır nəticələrə səbəb olar...

Bu vaxt rayon təhsil şöbəsinin metodisti Səfadər Məmmədov içəri daxil oldu, Adilə xanımdan bu yaxında respublika Təhsil Nazirliyinə göndərilmiş məktubu istədi. Adilə xanım ayağa qalxaraq arxasındakı iri şkafın rəflərində səliqə ilə yan-yana düzülmüş qalın qovluqları bir-bir gözdən keçirdi. Onlardan birini ayıraraq stolun üstünə qoydu. Oradakı çoxsaylı sənədləri bir-bir çevirdi, Səfadər müəllimin istədiyi məktubu tapıb ona təqdim etdi. Adilə xanımın tələb olunan sənədi bu qədər tez tapmasına təəccüb etdik. O gülümsünərək:

— Peşə vərdişidir, — dedi. — Yaxın vaxtlarda toplanan sənədlərin çoxunu gözüyumulu tapıram. Amma çoxdankı sənədlər üçün gərək qeydiyyat jurnalına baxam, — qarşısındakı qalın dəftərxana jurnalını bizə göstərdi.

Adilə xanımın indiyə qədər neçə şöbə müdiri ilə işlədiyini xəbər aldım. Ani fikrə gedib:

— Əjdər müəllim birlikdə işlədiyim altıncı müdirdir, — dedi və sonra əlavə etdi: — Hüseynağa

Xəlilovu, Tədbir Mahmudovu, Ramiz Hüseynovu, Rabil Cəfərovu, Salman Abdullayevi də hörmətlə xatırlayıram. Hərəsinin öz üstünlüyü, öz xüsusiyyəti var idi. Hazırkı müdirimiz Əjdər Kərimovun isə ən fərqləndirici cəhəti sadəliyi, səmimiliyi, insanpərvərliyidir. Kiminsə ondan incik qaldığına, narazılıq etdiyinə inanmıram... Adilə xanım eyni zamanda keçmiş təhsil işçilərimiz, qabaqcıl müəllimlərimiz haqqında da hörmətlə söhbət açdı. İmamverdi Əbilovun, Cavad Mirzəyevin, Babaş Quliyevin, Akif Cəfərovun, Abdulla Abbasovun, Ərəstun Rüstəmovun, Abdulhəmid Axundovun, Abdul Nağıyevin, Abbas Əliyevin, Şaban Kərimovun, Turə və Səyyarə Əsədova bacılarının, onlarca başqalarının barəsində şirin xatirələr söylədi.

Adilə xanım özünün şəfqəti, nəvazişi ilə təhsil işçilərinin sevimlisidir. Hamı dərdini, ehtiyaclarını birinci gəlib ona deyir, ona danışır, ondan məsləhət istəyir. Adilə xanım da onların hamısına gücü çatan köməyi edir, məsləhətini verir, hamını düzgün istiqamətə yönəldir.

Adilə Əsgərova həm də qayğıkeş bir ailə sahibi, sədaqətli ömürgün yoldaşı, istəkli bir nənədir. Həyat yoldaşı İslam Əsgərovla birlikdə iki qız tərbiyə edərək böyüdüb. Bir qızı Vüsalə bizim şəhər 4 saylı tam orta məktəbinin ən qabaqcıl sinif müəllimlərindən biridir. Digər qızı İlahə isə Bakıda maliyyə sahəsində çalışır. Nəvəsi Tahirə Bakı Dövlət Universitetinin coğrafiya fakültəsində təhsil alır, Aysel isə 10-cu sinifdə oxuyur. Yəqin ki, onlar da gələcəkdə nənələri kimi işlərində diqqətli, məsuliyyətli olacaq, çalışdıqları kollektivlərin hörmətini və ehtiramını qazanacaqlar.

Ə.ZAHİDOV

GÜNDOĞAR

№ 9-10-11-12 (6673) 14 aprel 2018-ci il

SON SƏHİFƏ

KİTAB HƏDİYYƏSİ

Kitabxanalar milli-mənəvi xəzinəmizdir. Gənc nəslin Vətənimizə layiq vətəndaşlar kimi yetişməsində kitabların da rolu az deyildir. Sahə kitabxanaları müəyyən qrup insanlara xidmət edirsə, kütləvi kitabxanaların əhatə dairəsi xüsusilə genişdir, bu kitabxanalardan daha geniş oxucu kütləsi istifadə edərək faydalanır.

Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kütləvi kitabxanalar əsas etibarı ilə dövlətin vəsaiti ilə çap olunan kitablar hesabına formalaşır, komplektləşirlər. Bununla yanaşı ayrı-ayrı yazıçı və şairlərin, digər şəxslərin öz kitablarını buraya hədiyyə etmələri də kitabxanaların fondlarının zənginləşməsinə öz müsbət təsirini göstərir. Oxucuların mənəvi tələbatlarının ödənilməsində bu kitabların da rolu az deyildir.

Yazıçı-publisist Qurbanxan Pirəliyev də rayon ictimaiyyəti arasında tanınan insanlardandır. Uzun illərdən bəri həkim kimi rayon sakinlərinə tibbi xidmət göstərən Q.Pirəliyev eyni zamanda yaradıcılıqla da məşğul olur, neçə-neçə dəyərli kitabların müəllifidir. Bu günlərdə müəllifin öz kitablarını rayon mərkəzləşdirilmiş kitabxana sisteminə hədiyyə etməsi burada çalışanları çox sevindirmişdir. Bununla əlaqədar təşkil olunan çay süfrəsi ətrafında səmimi söhbət olmuşdur. Kitabxananın rəhbərliyi qiymətli hədiyyəsinə görə yazıçı-publisist Qurbanxan Pirəliyevə minnətdarlığını bildirmiş, ona yeni yaradıcılıq uğurları arzulamışdır.

ŞAİRƏ İLƏ GÖRÜŞ

Rayon mərkəzləşdirilmiş kitabxana sistemində tanınmış şairə, filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan və İraq Yazıçılar Birliyinin üzvü, elm və mədəniyyət sahəsindəki xidmətlərinə görə Mahmud Kaşğarlı Beynəlxalq Fondunun "San yarlığı" mükafatı laureatı, respublika Təhsil Nazirliyi Təhsil İnstitutunun aparıcı elmi işçisi Adilə Nəzərlə keçirilən görüş yaddaqalan olmuşdur. Əslində bu görüşün bünövrəsi bir neçə ay bundan əvvəl kitabxanada şəhər 4 saylı tam orta məktəbinin coğrafiya müəllimi Ələkbər Zahidovun alim qardaşı Təvəkkül Zahidova həsr etdiyi "Ömür şərəflə yaşananda" kitabının təqdimat mərasimi zamanı qoyulmuşdu. O vaxt respublikamızın bir qrup yaradıcı ziyalısı ilə birlikdə təqdimat mərasiminə qatılan Adilə xanım da çıxış edərək şeirlərini oxumuşdu.

Görüşü giriş sözü ilə Neftçalada Qadınların Sosial İnkişafına Dəstək İctimai Birliyinin sədri Gülqədəm Mirzəzadə açmışdır. Sonra o, tədbiri aparmaq üçün mikrofonu Ruhəngiz Nəcəfovaya vermişdir. Ruhəngiz xanım Adilə Nəzərin həyat və yaradıcılığı barədə məlumat vermiş, onun poeziyasının xüsusiyyətlərindən danışmışdır. Sonra bu fikirləri Fərman Hüseynov və Ramiz Hüseynov davam etdirmiş, Adilə Nəzərin şeirlərindən nümunələr söyləmişlər.

İstedadlı şairə ilə görüşə Bakıdan, qonşu Salyan rayonundan gələn qonaqlar da az deyildi. "Ulduz" jurnalının poeziya şöbəsinin rəhbəri Fərqanə Mehdiyeva, "Araz" Ziyalılar İctimai Birliyinin sədri, filologiya elmləri doktoru Nizami Muradoğlu, Azərbaycan Yazıçılar Birliyi Muğan regional şöbəsinin sədri Nəbi İbrahimov və başqaları Adilə Nəzərin yaradıcılıq xüsusiyyətlərindən danışmış, onun şeirlərinin müasir poeziyamızda tutduğu mövqedən söhbət açmışlar.

"Gündoğar" qəzetinin əməkdaşı, bu qəzetin nəzdində fəaliyyət göstərən "Xəzər nəğmələri" ədəbi məclisinin aparıcı şairi Zabil Pərviz Adilə Nəzər poeziyasının xüsusiyyətlərindən söhbət açmış, bu poeziyanı klassik ədəbiyyatımızın nümunələri ilə müqayisə etmişdir. Qeyd etmişdir ki, özündən əvvəl yazılanları təkrar edən, təqlidçilik yolu tutan sənətkarlar heç vaxt qəlblərə yol tapa, ürəklərdə yaşaya bilməzlər. Buna görə Adilə Nəzər bu yoldan uzaq qaçır, yalnız hiss edib duyduqlarını yazır.

Nəğməkar şairə Zərxanım Ülvi də Adilə Nəzər poeziyasının vurğunu olduğunu bildirmiş, özünün yeni yazdığı şeirlərini oxumuşdur.

Sonda aparıcı sözü Adilə Nəzərə vermişdir. O bu görüşü təşkil edənlərə minnətdarlığını bildirmiş, şeirlərindən nümunələr söyləmiş, iştirakçıların çoxsaylı suallarını cavablandırmışdır.

Dahilərin həyatından sətirlər

Vacib elmi iş aparan dahi fizik İsaak Nyuton adamların ona mane olmaması üçün qapısına belə bir elan yazıb yapışdırır: "Nyuton evdə yoxdur." Son dərəcə huşsuz olan böyük alim bir dəfə dincəlmək üçün küçəyə çıxır. Evə qayıdanda isə qapıdakı elana görə geri qayıdır...

X X X

Nyuton 29 il parlamentə, Lordlar Palatasına deputat seçilir. Amma o, iclaslarda heç vaxt danışmır, heç bir məsələyə münasibət bildirmir. Bir dəfə parlamentdə qızğın müzakirələr getdiyi vaxt sədr görür ki, Nyuton əlini qaldırıb söz istəyir. Tez dillənir:

— Buyurun, hörmətli alim. Deyin görək sizin fikriniz nədir?

Nyuton isə özünə məxsus sakit səslə:

— Pəncərəni açıq qoymusunuz, — deyir, — soyuqdur, zəhmət olmasa onu bağlayın.

29 il ərzində Nyutonun parlament iclaslarında dedyiyi yeganə söz yalnız bundan ibarət olur.

X X X

Dahi rus bəstəkarı və pianoçusu Albert Rubinşteynin yanına gözəl bir xanım gələrək deyir:

— Xahiş edirəm mənim musiqi qabiliyyətimi yoxlayın.

Bəstəkar deyir:

— Buyurun, başlayın.

Xanım pianonun arxasına keçərək çalmağa başlayır. Bir qədər çaldıqdan sonra dayanıb xəbər alır:

— Mən nə etməliyəm?

Bəstəkarsa sakit, mülayim səslə:

— Heç bir şey, — deyir, — təcili ərə getməlisiniz.

X X X

Böyük fransız yazıçısı Balzakın evinə gecə oğrular gəlir. Balzak tələsik boş şkaflardan birinin içərisinə girib gizlənir. Oğrular evdə heç nə tapa bilmirlər. Axırda Balzakın gizləndiyi şkafın qapısını açırlar. Yazıçını orada görüb qorxaraq xəbər alırlar:

— Burda nə edirsiniz?

Balzak halını pozmadan:

— Xəcalətimdən gizlənmişəm, — deyir. Sonra da əlavə edir, — Ay bədbəxtlər, mənim gündüz tapa bilmədiyim şeyi siz gecənin qaranlığında necə tapacaqsınız?

X X X

Mikayıl Müşfiq bir dəfə xanımı Dilbərlə tramvayda gedərkən qəfildən ayağa qalxır və Dilbəri tələsdirir:

— Tez qalx, düşürük.

Tramvaydan düşürlər. Dilbər xəbər alır:

— Ay Müşfiq, bizim dayanacağımıza hələ xeyli var. Niyə belə etdin?

Müşfiqsə cavab verir:

— Qarşımda qaraqabaq, qəddar bir adam oturmuşdu, sifətindən zəhər yağırdı, qəlbinin paxırı üzündən oxunurdu. Ona baxanda ürəyim sıxıldı, dözə bilmədim, yarı yolda düşməyə məcbur oldum.

Gözəllik vurğunu şair heç bir çirkinliyə, heç bir eybəcərliyə dözə bilmirdi. Xüsusilə də insan qəlbinin çirkinliyinə, eybəcərliyinə....

Toplayıb tərtib edəni:
İmamverdi ZEYNALOV

Havalar istiləşir, balıq alarkən diqqətli olun!

Tərkibində zülal, yağ, mineral maddələr olan balıq və balıq məhsullarının insanların qidalanmasında böyük əhəmiyyəti var. Fizioloji normaya əsasən orta yaşlı insan ildə azı 18 kq balıq istehlak etməlidir.

Ticarət şəbəkələrində əsasən diri, soyudulmuş, dondurulmuş, hisə verilmiş və qaxac edilmiş, duzlu balıq, balıq konservləri və digər dəniz məhsulları satılır.

Balıq alarkən istehlakçıların bir sıra məsələlərə diqqətlə yanaşması zəruridir. Çünki keyfiyyətsiz balıq və balıq məhsullarının istehlakı sağlamlıq üçün ciddi fəsadlar yarada bilər. Bunun baş verməməsi üçün balığın keyfiyyətinə, saxlama şəraitinə və müddətinə xüsusi fikir verilməlidir.

Təzə balığın dərisinin səthi təmiz, az miqdarda şəffaf selik ilə örtülü, pulcuqları hamar və parlaq, dərisi ətinə möhkəm yapışmış, gözləri parlaq olur.

Qəlsəmələri spesifik təzə balıq iyinə malik olur və tünd qırmızı rəngə çalır. Əzələsi bərk, elastik olub, sümükdən çətinliklə ayrılır. Basıldıqda əmələ gələn batıq tez hamarlanır. Qəlsəmələri boz rəngdə olan balığı almayın.

Təzəlik dərəcəsinin itməsi ilə əlaqədar olaraq balıq ətinin ağ rəngi itir. Balıq ətinin rəngini təyin etmək üçün onun qalın hissəsində bıçaqla kəsiklər aparılmalıdır.

Soyudulmuş balıq gövdəsinin temperaturu əzələ toxumasının dərinliyində mənfi 1S-dən müsbət 5S-yə qədər olan balıqdır. Gövdəsinin sıxlığı az, mexaniki zədəli, turşuvari iyi və ya qəlsəmələri qaralmış, bədəni selikli olan soyudulmuş balığın satışı qadağandır.

Gözləri batıq, iyi acımış balığın təzəliyi şübhəlidir və onu almaqdan çəkinin.

Balıq məhsulları alarkən istehlakçıların üzləşdiyi başlıca problem balığın saxlama müddətinin keçməsi ilə əlaqədar olur. Balığın köhnəliyini onda spesifik çürümə iyinin olması ilə müəyyənləşdirmək olar.

Xarab olma dərəcəsindən asılı olaraq qəlsəmələrin rəngi qırmızı-qəhvəyi, çəhrayı, rəngsiz və s. olur. Saxlama müddətinin ötməsi nəticəsində balığın gözünün rəngi bulanıqlaşır.

Balıq məhsullarının növündən asılı olaraq onların saxlama müddətləri, şəraiti və temperaturu müxtəlifdir. İlin isti vaxtlarında təzə balığı mağazada müvafiq şəraitdə 24 saat, soyuq vaxtlarda 48 saat saxlamaq olar.

Duzlu balıq çəlləklərdə duzlama səviyyəsindən asılı olaraq 4-9 ay, yeşiklərdə 4 aya qədər, xüsusi paketlərdə vakuum şəraitdə 20-35 sutka, vakumsuz şəraitdə 10-15 sutka, hisə verilmiş və qaxac edilmiş balıqlar iki aya qədər müddətdə saxlanıla bilər. Qurudulmuş balıq mənfi 8-10 dərəcədə 8-10 ay saxlanıla bilər.

Bazarlarda, yarmarkalarda və digər ticarət obyektlərində sanitar-gigiyenik tələblərə cavab verməyən şəraitdə balıq və balıq məhsullarının satışı qadağandır.

Balığı yalnız müvafiq saxlama və satış şəraiti olan yerlərdən alın.

Balıq konservləri metal və ya şüşə bankalarda, preservlər isə metal və ya polimer bankalarda qablaşdırılır.

Bankaların üzərində litoqrafiya üsulu ilə və ya kağız etiket üzərində müvafiq məlumatlar olmalıdır.

Balıq konservlərinin saxlama temperaturu 0-15S, preservlərin saxlama temperaturu isə -6+6S olmalıdır.

Qida üçün hazır olan və hermetik qablarda daha çox saxlanıla bilən məhsullardan olan balıq konservlərinin saxlama müddəti məhsulun növündən, qablaşdırılmasından və saxlama şəraitindən asılı olaraq 6 aydan 3 ilədək müəyyən edilir.

Unutmayın ki, sağlamlığınız öz əlinizdədir.

Azərbaycan Respublikası
İqtisadiyyat Nazirliyi
Antiinhisar Siyasət və
İstehlakçıların Hüquqlarının
Müdafiəsi Dövlət Xidməti

SƏHMDARLARIN NƏZƏRİNƏ!

"Neftçala Balıq Əmtəə" ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağı 25 iyun 2018-ci il saat 10:00-da Neftçala şəhər mədəniyyət evində keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1.ASC-nin illik hesabatlarının müzakirəsi və təsdiqi.

2.Cari məsələlərin müzakirəsi.

Səhmdarların ümumi yığıncağında şəxsiyyəti təsdiq edən sənədlə iştirak vacibdir.

Ümumi yığıncağın materialları ilə tanış olmaq üçün idarə heyətinə müraciət etmək olar.

İdarə Heyəti

VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

Vergilər Nazirliyi şəffaflıq və qarşılıqlı etimad təklif edir

Vergilər Naziriliyi vergi ödəyicilərinə müraciət edərək bildirir ki, vergi sistemində həyata keçirilməsinə başlanılmış şəffaflığın təmin edilməsi və vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi prinsipləri vergi ödəyicilərinin də öz öhdəliklərinə qanunauyğun yanaşmasını tələb edir. Şəffaflıq yalnız vergi orqanlarının fəaliyyətini deyil, eyni zamanda vergi ödəyicilərinin də öz öhdəliklərinə düzgün yanaşmasını əhatə etməlidir. Vergilərini tam həcmdə və vaxtında ödəyən hər bir intizamlı ödəyici vergi orqanlarının etibarlı tərəfdaşı olacaq və belə ödəyicilər daim dəstəklənəcəkdir.

Vergi hesabatına bilərəkdən saxta məlumatları daxil edənlər və vergidən yayınmağa cəhd göstərənlər isə qanun qarşısında cavab verəcək, onlarla sərt, lakin qanunun müəyyən etdiyi çərçivədə davranılacaqdır. Kiçik və ya böyüklüyündən asılı olmayaraq, hər bir vergi ödəyicisi öz vergi öhdəliyinə əməl etməli, ikili mühasibatlığın aparılması, vergiyə cəlb olunan dövriyyələrin gizlədilməsi, vergidən yayınma halları aradan qaldırılmalıdır.

Sahibkarların öz vergi öhdəliklərini rahat şəkildə yerinə yetirməsi üçün mövcud sistem, vergi ödəyicilərinə göstərilən xidmətlər ödəyicilərin gözləntilərinə və tələblərinə uyğun şəkildə təkmilləşdiriləcəkdir.

Vergi sistemində kadrların yenidən komplektləşdirilməsi, barəsində şikayətlər daxil olan vergi məmurları haqqında ölçü götürülməsi, peşəkarların irəli çəkilməsi ilə bağlı tədbirlərə də başlanılmışdır.

Vergilər Nazirliyi ödəyicilərə keyfiyyətli xidmətlər, qarşılıqlı etimad təklif edir, onları eşitməyə, qanuni tələblərinin həllinə kömək göstərməyə hazırdır. Vergi ödəyicilərindən isə intizamlı olmaq və vergi qanunvericiliyinin tələblərinə tam əməl etmək tələb olunur.

5 saylı Ərazi Vergilər İdarəsi

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatından kredit almış, kreditin təminatı kimi girov qoyulmuş, krediti qaytara bilmədiyinə görə məhkəmə qətnamələrinə əsasən kredit təşkilatının mülkiyyətinə keçirilmiş aşağıdakı yaşayış evləri və torpaq sahələri satılır:

Əvvəli ötən sayımızda

26.Neftçala rayonu Xolqarabucaq kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 47 olan 10,34 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Quliyev Şakir Rəşid oğlu olmuşdur)

27.Neftçala rayonu Seyidlər kəndində yerləşən 4-cü keyfiyyət qrupuna aid, bonitet balı 36 olan 7,88 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Yusifova Laləzar Qardaşəli qızı olmuşdur)

28.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 53 olan 7,34 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Hacıyev Eynulla İsmayıl oğlu olmuşdur)

29.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 6,55 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Əliyeva Təyibə Qarakişi qızı olmuşdur)

30.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 6,55 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi İbrahimov Rahim İbrahim oğlu olmuşdur)

31.Neftçala rayonu Tatarməhəllə kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 58 olan 7,24 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Vəliyev Aləddin Qüdrət oğlu olmuşdur)

32.Neftçala rayonu Xolqarabucaq kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 54 olan 4,33 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Həşimov Əflatun Yalov oğlu olmuşdur)

33.Neftçala rayonu Xəzər kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 50 olan 31,23 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abdullayev Elton Qulam oğlu olmuşdur)

34.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 7,97 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Suleymanov Fəxrəddin Əlihüseyn oğlu olmuşdur)

35.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 7,90 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Şahlar Zakir oğlu olmuşdur)

36.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 9,17 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Ağayev Şirvan Qurban oğlu olmuşdur)

37.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 53 olan 6,29 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Nüsrət Əvəz oğlu olmuşdur)

38.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 5,24 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi İsmayılov Kamil Mürşüd oğlu olmuşdur)

39.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 7,87 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Mübariz Ağasəf oğlu olmuşdur)

40.Neftçala rayonu Seyidlər kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 56 olan 9,20 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Cavadov Ziyafət Bahadır oğlu olmuşdur)

41.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 3,93 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Ağasəf Sadıq oğlu olmuşdur)

42.Neftçala rayonu Aşağı Surra kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 58 olan 4,6 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Salmanov Xanbala Ağabala oğlu olmuşdur)

43.Neftcala rayonu Qırmızıkənd kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 55 olan 7,8 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Həziyev Hidayət Hətəm oğlu olmuşdur)

44.Neftcala rayonu Qırmızıkənd kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 55 olan 6,67 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi İmanov İlqar İbad oğlu olmuşdur)

45.Neftcala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 55 olan 10,48 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Hüseynov Əlovsət Qulu oğlu olmuşdur)

46.Neftcala rayonu Tatarməhlə kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 55 olan 12,65 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Qurbanov Qədiralı Zəkulla oğlu olmuşdur)

57.Neftcala rayonu Aşağı Surra kəndində yerləşən ümumi sahəsi 206,4 kv.m, yaşayış sahəsi 64,0 kv.m, həyətyanı sahəsində 25,2 kv.m.təsərrüfat tikilisi, metal darvazası olan, bünörəsi beton olmaqla mişar daşdan tikilmiş, orta təmirli, 1 mərtəbəli 3 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Zeynalov Məhərrəm Nağı oğlu olmuşdur)

58.Neftcala rayonu Bala Surra kəndində yerləşən ümumi sahəsi 65,7 kv.m, yaşayış sahəsi 35,8 kv.m, yardımcı sahəsi 29,9 kv.m, bünövrəsi beton olmaqla çiy kərpicdən tikilmiş, orta təmirli, 1mərtəbəli 2 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Dadaşov Əli Dadaş oğlu olmuşdur)

59.Neftcala rayonu Xolqarabucaq kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid bonitet balı 55 olan 9,74 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Səfərov Mirələm Mirhəsən oğlu olmuşdur)

60.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid bonitet balı 41 olan 5,24 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi İsmayılov Qiyas Kamil oğlu olmuşdur)

61.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid bonitet balı 41 olan 5,24 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi İsmayılov Xalid Kamil oğlu olmuşdur)

62. Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid bonitet balı 41 olan 4,12 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi İsmayılov Sərraf Kamil oğlu olmuşdur)

63.Neftçala rayonu Xəzər kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid bonitet balı 41 olan 37,9 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Sultanova Ağanisə Tağı qızı olmuşdur)

64.Neftçala rayonu Xəzər kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid bonitet balı 41 olan 21,65 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Əliyev Alı Eyvaz oğlu olmuşdur)

65.Neftçala rayonu Xəzər kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid bonitet balı 41 olan 16,24 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Əhmədov Arif Rəhman oğlu olmuşdur)

66.Neftçala rayonu Xəzər kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid balı 41 olan 59,54 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Sultanov Elşən Özbəy oğlu olmuşdur)

Yaşayış evlərini və torpaq sahələrini satın almaq istəyən vətəndaşlar aşağıdakı ünvanlara müraciət edə bilərlər: Salyan şəhəri, H.Əliyev küçəsi 108, "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının Salyan filialı.

Əlaqə telefonları:
(02125)- 5-22-11, (02125)-5-52-86, (012)-497-50-02, (012)-538-92-72.

Baş redaktor
H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız:
Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38,
Telefon: 3-44-03
Mobil: (050) 333-72-30, (055) 669-56-71
H/H: №AZ95AIIB33080019446400258164
VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "BZ" mətbəəsində çap olunmuşdur.
Dizayn Fərhad Ağayevin,
fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 650 Sifariş №12
Bir nömrənin qiyməti: 40 qəpik.